RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 31 (8624) CÜMƏ AXŞAMI, 11 fevral 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

## Qarabağ savaş meydanından tikinti meydançasına çevrilir



**İldırım sürətli qələbə və onun ardınca işğaldan azad edilmiş ərazilərdə bərpa işlərinə start verilməsi Azərbaycan dövlətinin sülhə, əmin-amanlığa və inkişafa nə dərəcədə maraqlı olduğunu bütün dünyaya bəyan edir.**

Qarabağda 30 illik işğal siyasəti yeridən Ermənistanın necə amansız və dağıdıcı varvar olduğunu artıq dünya dərk etməkdədir. Bizim haqq işimizə dəstək verənlər qurub yaratdıqlarımızı, bütünlükdə sülh təşəbbüslərimizi alqışlayır və təlqin edir. Ermənistan isə özünü dünyaya nə qədər "əzabkeş xalq" qiyafəsində sivil bir cəmiyyət kimi sırımağa və sızlayıb ağlayaraq himayədarlarının qoltuğuna qısılsa da, törətdiyi sonsuz vəhşilikləri artıq gizlədə bilmir. Dünya ictimaiyyəti erməni yalanlarına yox, gördüklərinə, ermənilərin ərazilərimizdə törətdikləri vəhşiliklərin lal mənzərələrinə daha çox inanır.

Bu baxımdan Qarabağda başlanan bərpa-quruculuq işləri bütün dünyanın diqqətini özünə çəkir. Azərbaycan Prezidenti işğaldan azad edilən torpaqları qarış-qarış gəzir, uzun illər Ermənistan rəhbərliyi və onun havadarlarının gizlətdikləri vəhşilikləri və buna göz yuman beynəlxalq təşkilatları şəxsən ifşa edir. Dövlət başçısı bu barədə belə açıqlama vermişdir: "Bu talançılıq, bu vəhşilik, bu düşmənçilik bütün dünyanın diqqətini cəlb etməlidir. Məhz buna görə biz oraya jurnalistləri, diplomatik korpusun nümayəndələrini dəvət edirik. Daha da böyük sayda dəvət etməliyik ki, hər kəs görsün. Biz təkcə öz ərazi bütövlüyümüzü bərpa etməmişik, biz erməni faşizmini məhv etmişik, erməni vəhşiliyini məhv etmişik".

Məlum olduğu kimi, azad edilmiş ərazilərin bərpasını mərkəzləşmiş qaydada aparmaq üçün qərargah yaradılmışdır. Bütün təkliflər, təşəbbüslər və ideyalar burada cəmlənir, analiz edilir, ən vacib addımların atılmasına qərar verilir. Ərazilərin minalardan təmizlənməsi və infrastrukturun yaradılması təcili görülməli işlərin sırasındadır. Bu səbəbdən Minatəmizləmə Agentliyi yenidən formalaşdırılır, onun fəaliyyəti daha səmərəli qurulur. Ardınca işğalçıların vurduqları ziyanlar hesablanacaq ki, təzminat davasında ziyanın tam mənzərəsi və həcmi aydın olsun. İnfrastruktur layihələrinin icrası, bütün şəhərlərin, kəndlərin bərpasının baş planlarının "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyası əsasında hazırlanması sonrakı mərhələdə görüləcək işlər sırasındadır.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) baş analitiki Günay Quliyeva Prezidentin azad edilmiş ərazilərdə qurulacaq "smart-city", "smart-village", yəni "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyasını şərh edərkən qeyd edib ki, bu addımı, ilk növbədə, dünyada baş verən qlobal çağırışlara cavab kimi qəbul etmək olar. Belə mükəmməl yanaşmanın tətbiqi ona imkan verir ki, həm Qarabağ regionu texnoloji investisiyalar üçün maraq mərkəzinə çevrilsin, həm də digər regionlarımızda ağıllı şəhər-kənd texnologiyalarının tətbiqi pilot layihələr kimi irəli çıxsın.

*Ardı 4-cü səh.*

## Azərbaycan-Böyük Britaniya tərəfdaşlığının möhkəm bünövrəsi və geniş perspektivi var

### Bu tərəfdaşlıq işğaldan azad olunmuş ərazilərimizin bərpasında daha da möhkəmlənəcək



**Hazırda Azərbaycanın qarşısında dayanan ən ümdə vəzifələrdən biri 30 il ərzində erməni vandallarının çapıb taladığı şəhər və kəndlərimizin yenidən qurulması, məcburi köçkünlərin öz yurd-yuvasına qaytarılmasıdır. Bu məqsədlə genişmiqyaslı işlər başlanıb, yeni sosial və infrastruktur layihələrinə start verilib.**

Təqdirəlayiq haldır ki, biz bu layihələri dost ölkələrin şirkətlərinin, eləcə də indiyədək tərəfdaşlıq, əməkdaşlıq etdiyimiz müəssisə və qurumların yaxından iştirakı ilə gerçəkləşdirəcəyik. Prezident İlham Əliyev bu il fevralın 9-da Böyük Britaniyanın Avropa qonşuluğu və Amerika məsələləri üzrə dövlət naziri xanım Vendi Mortonu qəbul edərkən məhz bu məsələ də diqqət mərkəzində olmuşdur.

Böyük Britaniyanın Avropa qonşuluğu və Amerika məsələləri üzrə dövlət nazirinin Azərbaycana səfəri bir daha ölkələrimiz arasında güclü tərəfdaşlıq münasibətlərinin olduğunu və əməkdaşlığın davam etdirilməsi üçün gələcək planları əks etdirir. Böyük Britaniya ilə, həqiqətən, sıx əməkdaşlığımız var. Uzun illərdir enerji sahəsində tərəfdaşlıq edirik. BP şirkəti Azərbaycanın ən böyük neft, qaz və ixrac layihələrinə əməliyyatçılıq edir. "Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqlarının işlənməsi, Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri və digər layihələrin iştirakçısı və operatoru, bir sıra layihələrin isə iştirakçısıdır. BP ölkəmizdə iqtisadiyyatın digər sektorlarının inkişafına və sosial sahəyə də dəstək verir.

Sözügedən görüşdə Prezident İlham Əliyev BP şirkəti ilə strateji tərəfdaşlığı xüsusi qeyd edərək dedi: "Bu şirkət Azərbaycanda həyata keçirilən əsas layihələrdə lap əvvəldən investor qismində iştirak edib. "Əsrin müqaviləsi"nin vaxtının uzadılmasından sonra bizim əməkdaşlığımız bir çox onilliklər ərzində davam edəcəkdir.

*Ardı 4-cü səh.*

## İnkişafın yeni konturları

### Milli prioritetlər sistemli və mütərəqqi islahatların davamlılığını təmin edəcək

**"Uğurlu sosial-iqtisadi və siyasi nailiyyətlər, milli və multikultural dəyərlər qarşıdakı illərdə Şərqlə Qərbin qovşağı olan Azərbaycanın qüdrətinin daha da artacağına əminlik yaradır. Bu imkanlar 2030-cu ilə qədər olan mərhələdə Azərbaycanın iqtisadi suverenliyinin möhkəmləndirilməsinə və müasir həyat standartlarına əsaslanan yüksək sosial rifah cəmiyyətinə malik qüdrətli dövlətə çevrilməsinə zəmanət verir. Azərbaycan dövləti ölkədə əhalinin rifahının daha da artırılması üçün sosialyönümlü bazar iqtisadiyyatının inkişaf etdirilməsi yolunu seçmişdir".**

Prezident İlham Əliyevin "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında sərəncamında qeyd edilən bu fikirlər bir daha təsdiq edir ki, dövlətin əsas hədəflərini müəyyənləşdirən, növbəti 10 il üzrə yeni yol xəritəsini təqdim edən dövlət başçısının inkişaf siyasəti ardıcıl və sistemlidir. Azərbaycanda sosial-iqtisadi inkişafa dair Milli Prioritetlərin müəyyənləşdirilməsi növbəti illərdə daha yüksək iqtisadi göstəricilərin əldə olunmasına zəmin yaradır. Yeni prioritetlər, ilk növbədə, milli iqtisadiyyatın daha da şaxələndirilməsini təmin etmək baxımından tamamilə yeni imkanlar açır.

Əvvəlki illərdə həyata keçirilən sosial-iqtisadi siyasət quruculuq işləri və ərazi bütövlüyünün təmin edilməsi uzunmüddətli dövrdə Azərbaycanın daha keyfiyyətli inkişaf mərhələsinə keçməsinə, yüksək rifaha malik lider dövlət olmasına möhkəm əsaslar yaradır. Belə ki, indiyədək qazanılmış nailiyyətlər imkan verir ki, Azərbaycan qarşısına daha yüksək məqsədlər qoysun və bundan irəli gələn vəzifələri müəyyənləşdirsin. Prezident İlham Əliyevin təsdiq etdiyi milli prioritetlər də ölkəmizin yeni inkişaf mərhələsinə yüksəldilməsi ilə bağlıdır.

Beş milli prioritetin gerçəkləşdirilməsinə xidmət etmək hər bir vətəndaşın borcu, Azərbaycanda işləyən hər bir insanın mənəvi öhdəliyidir.

*Ardı 3-cü səh.*

## Pandemiya ilə ən effektiv mübarizə üsulu vaksinasiyadır



**Hazırda dünya pandemiya ilə mübarizənin ən təsirli yolu olan vaksinasiya mərhələsindədir.**

Artıq iki aydan çoxdur ki, yeni növ koronavirusa qarşı əksər ölkələrdə sürətli peyvəndləmə işi aparılır. Mütəxəssislər vaksinasiyanın qlobal bəlaya qarşı daha effektiv olması üçün bütün ölkələrdə onun tətbiqinin vacibliyini önə çəkirlər.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) COVID-19 üzrə sözçüsü Tarik Jasareviç deyib ki, təmsil etdiyi qurum pandemiyanın ilk günlərindən vaksinlərin hər kəsə əlçatan olması üçün bir mexanizm yaratmağa çalışır: "Çünki inanırıq ki, vaksinlərin əlçatan olması pandemiyaya nəzarəti ələ almaq üçün ən doğru tədbirdir. Bu, eyni zamanda iqtisadiyyatların ən qısa vaxtda bərpası yoludur.

*Ardı 3-cü səh.*

## Zəfər savaşının tarixçi döyüşçüsü

**... Təbiət də bu savaşa duyuq düşmüşdü sanki. Yerdəki müharibəyə göydəki savaşla cavab verirdi. Qapqara buludlar ağ buludları qovub, göy üzünü işğal etmişdi. Çaxan ildırımın, şimşəyin işığı silahların işığına qarışmışdı. Göydən yağış, yerdən isə güllə yağırdı...**

... Havaya yüksələn qatı tüstüdən, toz-torpaqdan gözgözü görmürdü. Bombalar, mərmilər, avtomatdan açılan atəşlər səngimək bilmirdi. Elə bil göy üzü də oda bələnib alışıb yanırdı. Səs-küydən az qalırdı qulaq kar olsun...

Ətrafı bürüyən atəş səsləri, qrad, top, minaatanlardan açılan mərmilər ölüm qəhqəhəsi çəkərək havada uçur, fit verərək sağdan-soldan şığıyan güllələr torpağa, daşa, ağaca, ya da əsgər canına sancılırdı...

O gün, noyabrın 8-də Azərbaycan xalqı arxa cəbhədə Şuşanın işğaldan azad olunmasını bayram edən zaman ermənilər bu sevincin qisasını döyüş meydanında almağa çalışırdılar.

*Ardı 5-ci səh.*

## Əhalinin 93 faizi Paşinyanın istefasını tələb edir

**Ermənistandakı gərgin siyasi proseslərin gedişi hakimiyyətə qarşı tədricən etimadsızlığın formalaşdığını üzə çıxarır. Ölkədə bütün sahələrdə problemlər günbəgün artır.**



Paşinyan iqtidarı isə onları həll edə bilmədiyindən ciddi çətinliklər yaranır. Bu ağır vəziyyət əhalinin hakimiyyətə qarşı narazılığını xeyli artırıb.

Media bunun əyani sübutu kimi tanınmış erməni teleqram kanallarından olan "Mediaport"un keçirdiyi sorğunu göstərir. Sorğuda Ermənistan vətəndaşlarından "Əgər bu həftə - bazar günü parlamentə növbədənkənar seçkilər keçirilsə, "Mənim addımım" fraksiyasının üzvlərinə səs verərdinizmi?" - deyə soruşulub. Ermənilərin 5 faizi "hə", 3 faizi cavab verməkdə çətinlik çəkdiyini, 93 faizi isə "yox" deyib.

*Ardı 5-ci səh.*

# GUAM PA-nın 13-cü sessiyasında səmərəli müzakirələr aparılıb

**Fevralın 10-da GUAM Parlament Assambleyasının videokonfrans formatında 13-cü sessiyası keçirilib.**



Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, Milli Məclis sədrinin müavini Adil Əliyev sessiyanı açaraq bildirib ki, bu iclasın daha geniş tərkibdə keçirilməsi təşkilatın nüfuzunun getdikcə artmasının və fəaliyyətinin rəğbətlə qarşılanmasının bariz nümunəsidir. Qeyd edib ki, Azərbaycan parlamenti bundan sonra da GUAM PA-nın fəaliyyətinə lazımi dəstək göstərmək əzmindədir.

Hazırda beynəlxalq münasibətlər sistemində regional inteqrasiya proseslərinin rolunun və əhəmiyyətinin artdığından söz açan sədr müavini vurğulayıb ki, tarixin heç bir mərhələsində dövlətlərarası əməkdaşlığın dərinləşdirilməsinə ehtiyac bu qədər olmayıb. Bütün dünyanı silkələyən koronavirus pandemiyası bir daha göstərdi ki, qlobal problemlərin həllində dövlətlər arasında qarşılıqlı dəstək, ortaq mövqe və sıx əməkdaşlıq labüddür.

Son dövrlərdə parlament diplomatiyasının xeyli aktuallaşdığını, beynəlxalq münasibətlərin qanunverici bazasını zənginləşdirdiyini qeyd edən Adil Əliyev bildirib ki, günümüzdə GUAM PA çərçivəsində iş birliyi regional inteqrasiyanın sürətləndirilməsində mühüm vektorlardan birinə çevrilə və beynəlxalq təhlükəsizliyin təmin edilməsində mühüm rol oynaya bilər.

Milli Məclis sədrinin müavini sessiya iştirakçılarının diqqətinə çatdırıb ki, 2020-ci il bütün çətinliklərə baxmayaraq, Azərbaycan tarixinə Zəfər ili kimi daxil oldu. Dağlıq Qarabağ münaqişəsinin həlli, reallaşmağa başlayacaq yeni layihələr yalnız Azərbaycanın deyil, regionun bütün dövlətlərinin rifahına müsbət təsir edəcək.

Sonra sessiyada GUAM PA-nın sədri, qurumda Azərbaycan nümayəndə heyətinin rəhbəri Elnur Allahverdiyev gündəlikdə dövlətlərimiz üçün ciddi maraq kəsb edən məsələlərin dayandığını bildirib. COVID-19 pandemiyası ilə yadda qalan ötən ilin iqtisadi cəhətdən də qeyri-sabit olduğunu, pandemiya ucbatından bütün dünyada özəl sektorun və sahibkarlığın ciddi zərər gördüyünü, bir sıra sahələrin iflasa uğradığını qeyd edib. Bütün dünya və region ölkələri kimi, Azərbaycanın da koronavirusla bağlı problemlərlə qarşılaşdığını və onların fəsadlarını yaşadığını deyib.

2020-ci ildəki Vətən müharibəsindən söz açan Elnur Allahverdiyev həmin dövrdə ölkəmizə verdikləri dəstəyə, vəziyyətə operativ reaksiyalarına görə Gürcüstan, Ukrayna və Moldova nümayəndə heyətlərinə minnətdarlığını bildirib. Diqqətə çatdırıb ki, bu ildən etibarən Azərbaycan üçün yeni mərhələ başlayır, işğal illərində tamamilə dağıdılmış, viran edilmiş əraziləri bərpa etmək ən böyük vəzifəmizdir. Bərpa işlərinə 2021-ci ilin dövlət büdcəsindən böyük məbləğdə vəsait ayrıldığını, bu prosesdə özəl sektorun da iştirak edəcəyini, qarşıdakı illərdə Qarabağın bərpasına böyük investisiya qoyuluşu gözlənildiyini qeyd edən GUAM PA-nın sədri qurum üzrə tərəfdaşlarımızı Qarabağda qəbul edib bu tarixi Azərbaycan torpağının gözəllikləri və maddi-mədəniyyət abidələri ilə tanış edəcəyimiz günün yaxınlaşdığını söyləyib.

Daha sonra Elnur Allahverdiyev bildirib ki, Azərbaycan bu sessiyada iştirak edən Baltik Assambleyası ilə də əməkdaşlıqda maraqlıdır və əlaqələrimizi genişləndirmək arzusundadır. Biz istəyirik ki, Baltik Assambleyası dünyanın bir sıra dövlətlərinin tanıdığı Xocalı soyqırımını tanısın.

Sonra tədbirdə GUAM PA-dakı Gürcüstan nümayəndə heyətinin rəhbəri Georgi Xelaşvili, Moldova nümayəndə heyətinin rəhbəri Aleksandru Jizdan, Ukrayna nümayəndə heyətinin rəhbəri Svyatoslav Yuraş çıxış edərək bir sıra mühüm məsələlərə toxunublar, əməkdaşlıq əlaqələrinin genişləndirilməsi imkanlarından və vacibliyindən bəhs ediblər.

Sessiyada Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilatın - GUAM-ın Baş katibi Altay Əfəndiyev geniş və əhatəli çıxış edərək qurum qarşısında duran bir çox məsələləri diqqətə çatdırıb.

Baltik Assambleyasının prezidenti Andryus Kupçinskas GUAM-a böyük önəm verdiklərini və əməkdaşlığa hazır olduqlarını bəyan edib.

Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin Baş katibi Asəf Hacıyev GUAM-ın təməl prinsiplərindən söz açıb. Vurğulayıb ki, artıq Ermənistan-Azərbaycan münaqişəsi başa çatıb və noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanata əsasən, açılacaq Naxçıvan dəhlizi region ölkələrinin inkişafına ciddi dəstək verəcək. Azərbaycan Prezidentinin təşəbbüsü ilə altıtərəfli əməkdaşlıq platformasının yaradılması miqyaslı geosiyasi və geoiqtisadi layihələrin reallaşdırılmasına meydan verəcək.

TÜRKPA-nın Baş katibi Altınbek Mamayusupov GUAM-ın fəaliyyətini yüksək dəyərləndirdiklərini və qurumla əməkdaşlıqda maraqlı olduqlarını bildirib, Qarabağın işğaldan azad olunması münasibətilə Azərbaycan xalqına təbriklərini çatdırıb.

GUAM PA-nın 13-cü sessiyasının 4 məsələdən ibarət gündəliyi təsdiqləndikdən sonra "Yeni qlobal çağırışlar şəraitində GUAM-a üzv dövlətlərin əməkdaşlığı" mövzusunda müzakirələrə başlanıb. Öncə COVID-19 pandemiyasının sosial və iqtisadi nəticələrinə qarşı aparılan mübarizədən bəhs olunub. Müzakirədə qurumdakı nümayəndə heyətinin rəhbərlərindən Georgi Xelaşvili (Gürcüstan) və Aleksandru Jizdan (Moldova), Azərbaycan nümayəndə heyətinin üzvü Cavid Osmanov, TƏBİB-in şöbə müdiri Yaqut Qarayeva mövcud vəziyyət və görülmüş tədbirlər barədə məlumat veriblər.

Sonra sessiyada "GUAM-a üzv dövlətlərin ərazisindəki münaqişələrin mövcud vəziyyəti və həlli perspektivləri, əməkdaşlığın yeni istiqamətləri" mövzusunda ətraflı fikir mübadiləsi aparılıb. Müzakirə zamanı çıxış edən Gürcüstan nümayəndə heyətinin rəhbəri Georgi Xelaşvili, Azərbaycan nümayəndə heyətinin üzvü Nəsib Məhəməliyev, Azərbaycan Xarici İşlər Nazirliyinin şöbə müdiri Mahur Qasımov bir sıra mühüm məsələlərə toxunublar.

Gündəlikdəki növbəti məsələni təqdim edən Azərbaycan nümayəndə heyətinin üzvü Əli Məsimli "Parlamentlərarası qarşılıqlı əlaqələrin inkişafı, GUAM PA ilə Baltik Assambleyasının əməkdaşlıq prioritetlərinin həyata keçirilməsi" mövzusunda məruzə edib.

Sessiyada "GUAM-ın əsas iqtisadi layihələrinin təşviqi, əməkdaşlığın yeni istiqamətləri" barədə danışan GUAM Katibliyinin nümayəndəsi Səbuhi Temirov bu ərazidə azad iqtisadi zonanın yaradılması istiqamətində aparılan işlər barədə ətraflı məlumat verib.

Gündəlikdəki məsələlər ətrafında gedən müzakirələrdə GUAM-ın Baş katibi Altay Əfəndiyev, Milli Məclisin deputatı Fatma Yıldırım, Baltik Assambleyasının vitse-prezidenti Yanis Vutsans rəy və təkliflərini bildiriblər.

Videokonfransda GUAM PA-nın 13-cü sessiyasının yekun sənədi müzakirə edilərək qəbul olunub.

Sonra rotasiya qaydasında GUAM Parlament Assambleyasına sədrlik Azərbaycandan Gürcüstana ötürülüb. Elnur Allahverdiyev gürcü həmkarlarına quruma sədrlikdə uğurlar arzulayıb.

Videokonfransda Milli Məclisin deputatı Qüdrət Həsənquliyev, GUAM Katibliyinin nümayəndələri, Gürcüstan, Moldova, Ukrayna və Baltik Assambleyasının nümayəndə heyətlərinin üzvləri də iştirak ediblər.

# Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin təşəbbüsü ilə konfrans keçirilib

**Fevralın 10-da Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin təşəbbüsü ilə "Vətən müharibəsindən sonra işğaldan azad edilmiş ərazilərdə ekoloji vəziyyət, perspektiv layihələr və innovativ Qarabağ" mövzusunda onlayn konfrans keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, parlamentin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov onlayn tədbiri açaraq bildirib ki, konfrans çox aktual mövzuya həsr olunub.

Komitə sədri diqqətə çatdırıb ki, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz 30 ilə yaxın işğal altında olan torpaqlarımızı 44 günlük Vətən müharibəsində azad etdi, ölkəmizin ərazi bütövlüyü təmin olundu. Hazırda işğaldan azad edilmiş ərazilərin yenidən qurulması və bərpası işləri qarşıda dayanan ən mühüm məsələlərdən biridir.

Sadiq Qurbanov bildirib ki, XXI əsrin əsas çağırışlarından biri ekoloji tarazlığın təmin edilməsidir. Buraya təbii resursların intensiv istismarının, neft-qaz və kömür hasilatının məhdudlaşdırılması, bərpa olunan enerji növlərinə, yaşıl və mavi iqtisadiyyata üstünlük verilməsi, su ehtiyatlarının səmərəli istifadəsi, karbon qazının həcminin azaldılması, təkrar emal və digər məsələlər daxildir.

Sonra onlayn konfransda çıxış edən ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev, energetika nazirinin müavini Samir Vəliyev, iqtisadiyyat nazirinin müavini Elnur Əliyev, Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradov, kənd təsərrüfatı nazirinin müavini İlhamə Qədimova, Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyinin icraçı direktoru Orxan Məmmədov, Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili qarşıda duran vəzifələrlə bağlı fikirlərini bildiriblər.

Tədbirdə işğaldan azad edilmiş ərazilərə qayıdış, ətraf mühitin qorunması və enerji təminatı, sahibkarların quruculuq işlərinə cəlb olunması, həmin torpaqlarda dövlət-özəl sektor əməkdaşlığının perspektivləri, bölgədə kənd təsərrüfatının inkişafı və digər məsələlər geniş müzakirə olunub.

Onlayn konfransa yekun vuran komitə sədri Sadiq Qurbanov konfransın səmərəli keçdiyini bildirib, səslənən fikir və təkliflərin faydalı olacağına əminliyini ifadə edib.

# GUAM Parlament Assambleyasının 15-ci büro iclası olub

**Fevralın 10-da GUAM Parlament Assambleyasının (PA) videokonfrans formatında 15-ci büro iclası keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, iclasda GUAM PA-nın sədri, qurumda Azərbaycan nümayəndə heyətinin rəhbəri Elnur Allahverdiyev və nümayəndə heyətinin üzvü Nəsib Məhəməliyev iştirak ediblər.

Tədbirdə GUAM Parlament Assambleyasının komitələrində 2021-ci il üçün milli nümayəndə heyətlərinin tərkibinin təsdiqlənməsi, büronun növbədənkənar iclasının nəticələri, Gürcüstandakı parlament seçkilərində qurumun müşahidə missiyasının işi, GUAM PA-nın 13-cü iclasının bəyannamə layihəsi və digər məsələlərə baxılıb.

GUAM PA-nın sədri və qurumda Azərbaycan nümayəndə heyətinin rəhbəri Elnur Allahverdiyev təşkilatın iyulun 24-də keçirilmiş növbədənkənar 14-cü büro iclasında GUAM PA-ya üzv ölkələrə Ermənistan-Azərbaycan təmas xəttində Ermənistanın təxribatı nəticəsində baş verən gərginliklə bağlı Azərbaycanın ədalətli mövqeyini dəstəklədiklərinə görə öz təşəkkürünü ifadə edib. Bildirib ki, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın şanlı ordusu 44 günlük Vətən müharibəsində zəfər qazanaraq torpaqlarımızı işğaldan azad edib. Müzakirələr zamanı GUAM PA-da Gürcüstan nümayəndə heyətinin rəhbəri Georgi Xelaşvili, Ukrayna nümayəndə heyətinin rəhbəri Svyatoslav Yuraş, Moldova nümayəndə heyətinin rəhbəri Aleksandru Jizdan gündəlikdəki məsələlər barədə öz fikirlərini açıqlayıblar.

GUAM PA-nın Baş katibi Altay Əfəndiyev əməkdaşlıq əlaqələrinin daha da möhkəmləndirilməsinə dair öz rəy və təkliflərini diqqətə çatdırıb.

Tədbirdə GUAM Parlament Assambleyasına sədrlik Gürcüstana təhvil verilib.

# Maliyyə Nazirliyi 2020-ci il dövlət və icmal büdcəsinin icrasına dair məlumatı açıqlayıb

**Maliyyə Nazirliyi Azərbaycan Respublikasının 2020-ci il dövlət və icmal büdcəsinin icrasına dair məlumatı açıqlayıb.**

Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, operativ məlumatlara əsasən, 2020-ci il üzrə dövlət büdcəsinin mədaxili 24 milyard 124 milyon manat proqnoza qarşı 24 milyard 679,2 milyon manat və ya 102,3 faiz icra olunub, bu da 2019-cu illə müqayisədə 461,1 milyon manat və ya 1,9 faiz çoxdur. Ötən il qeyri-neft sektoru üzrə büdcə daxilolmaları 10 milyard 677,2 milyon manat və ya 105,4 faiz icra edilib. Bu, 2019-cu illə müqayisədə 63,7 milyon manat və ya 0,6 faiz çoxdur.

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xətti ilə büdcəyə 7 milyard 387,2 milyon manat vəsait təmin edilib ki, bu da proqnoza nisbətən 197,2 milyon manat və ya 2,7 faiz çoxdur. Həmin vəsaitin 75,6 faizi və ya 5 milyard 585,1 milyon manatı qeyri-neft sektorundan daxilolmaların payına düşməklə proqnoza nisbətən 185,1 milyon manat və ya 3,4 faiz, 2019-cu illə müqayisədə 153,1 milyon manat və ya 2,8 faiz çoxdur.

Dövlət Gömrük Komitəsinin xətti ilə dövlət büdcəsinə 3 milyard 938,2 milyon manat vəsait təmin edilib ki, bu da proqnoza nisbətən 108,2 milyon manat və ya 2,8 faiz çoxdur. Dövlət Neft Fondundan dövlət büdcəsinə proqnozlaşdırılmış məbləğdə transfert, yəni 12 milyard 200 milyon manat vəsait daxil olub.

Dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların ödənişli xidmətlərindən daxilolmalar 596,1 milyon manat təşkil edib ki, bu da proqnozdan 207,9 milyon manat və ya 25,9 faiz az, 2019-cu illə müqayisədə isə 17,2 milyon manat və ya 3 faiz çoxdur.

İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti dövlət büdcəsinə dövlət əmlakının icarəyə verilməsindən daxilomalar üzrə 10,3 milyon manat vəsait təmin edib ki, bu da proqnoza nisbətən 2,3 milyon manat və 28,8 faiz çoxdur. Dövlət büdcəsinə sair daxilolmalar üzrə 547,4 milyon manat vəsait daxil olub.

Operativ məlumatlara əsasən, 2020-ci ildə dövlət büdcəsinin xərcləri təsdiq olunmuş proqnoza nisbətən 96,1 faiz və ya 26 milyard 416,3 milyon manat icra olunub ki, bu da 2019-cu illə müqayisədə 1 milyard 990,4 milyon manat və ya 8,1 faiz çoxdur.

Dövlət büdcəsi vəsaiti hesabına əsas dövlət vəzifələrinin yerinə yetirilməsinə, əməkhaqları, müavinətlər, pensiyalar, dövlət borcu üzrə öhdəliklərin və digər zəruri xərclərin tam və vaxtında maliyyələşdirilməsinə nail olunub.

2020-ci il dövlət büdcəsi xərclərinin 16 milyard 364 milyon manatı və ya 62 faizi cari xərclərə yönəldilib ki, bu da 2019-cu illə müqayisədə 2 milyard 835,1 milyon manat və ya 21 faiz çoxdur. Cari xərclər üzrə artım əsasən 2019-cu ildə dövlət büdcəsindən maliyyələşən və maliyyə yardımı alan təşkilatlarda çalışanların əməkhaqlarının və ölkədə pensiya və sosial ödənişlər üzrə baş vermiş artımların qarşılanmasına 2 milyard 39,9 milyon manat, koronavirus (COVID-19) pandemiyasının iqtisadiyyatda yaratdığı mənfi təsirlərin azaldılmasına və mübarizə tədbirlərinə 609 milyon manat, ali təhsilin maliyyələşdirilməsinə 186,2 milyon manat vəsait yönəldilib.

2020-ci ilin dövlət büdcəsindən 8 milyard 326,1 milyon manatı və ya 31,5 faizi əsaslı xərclərə (2019-cu illə müqayisədə 1 milyard 46,1 milyon manat və ya 11,2 faiz az), 1 milyard 726,2 milyon manatı və ya 6,5 faizi dövlət borcuna və öhdəliklərinə xidmətlə bağlı xərclərə (2019-cu illə müqayisədə 201,4 milyon manat və ya 13,2 faiz çox) yönəldilib. 2020-ci ildə 2019-cu illə müqayisədə səhiyyə xərclərinə 1,9 dəfə və ya 814 milyon manat, sosial müdafiə və sosial təminat xərclərinə 36,2 faiz və ya 828,1 milyon manat, müdafiə və milli təhlükəsizlik xərclərinə (cari xərclər, dövlət investisiya qoyuluşu və ehtiyat fondlarından ayrılan vəsaitlərin cəmi) 36,1 faiz və ya 1 milyard 72,6 milyon manat, təhsil xərclərinə 26,4 faiz və ya 579,9 milyon manat, məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq orqanları üzrə xərclərə 21 faiz və ya 317,1 milyon manat, mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət xərclərinə 7,3 faiz və ya 23,2 milyon manat, kənd təsərrüfatı və ətraf mühitin mühafizəsi xərclərinə 2,1 faiz və ya 22,7 milyon manat çox vəsait yönəldilib.

Dövlət büdcəsi xərclərinin 36,5 faizi və ya 9 milyard 652 milyon manatı sosial təyinatlı xərclərin (əməyin ödənişi fondu, təqaüd və sosial müavinətlər, dərman və ərzaq xərcləri) maliyyələşdirilməsinə yönəldilib ki, bu da 2019-cu illə müqayisədə 1 milyard 890,7 milyon manat və ya 24,4 faiz çoxdur.

Ölkənin müdafiə potensialının gücləndirilməsi və silahlı qüvvələrin maddi-texniki təminatının daha da yaxşılaşdırılması məqsədilə 2020-ci ilin dövlət büdcəsində təsdiq edilmiş 3 milyard 787,5 milyon manat müdafiə xərclərinə qarşı (cari xərclər, investisiya qoyuluşu və ehtiyat fondlarından ayrılan vəsaitlərin cəmi) 4 milyard 426,8 milyon manat vəsait ayrılıb ki, bu da 2019-cu illə müqayisədə 1 milyard 72,6 milyon manat və ya 36,1 faiz çoxdur.

Azərbaycan Respublikası Prezidentinin tapşırığına müvafiq olaraq, dövlət büdcəsindən müdafiə xərclərinə əlavə ayrılmış vəsait hesabına yeni hərbi texnikanın alınması, ön cəbhəyə ezam olunmuş hərbi qulluqçuların və səfərbərliklə hərbi xidmətə çağırılmış zabit və gizir vəzifələrinə təyin edilmiş heyətin əlavə pul təminatı, Silahlı Qüvvələrə səfərbərliklə çağırılmış əsgər vəzifələrinə təyin edilmiş heyətə xidmət etdiyi müddətdə aylıq vəzifə maaşı və ona müəyyən edilmiş aylıq əlavənin ödənilməsi qarşılanıb.

Koronavirus pandemiyası ilə mübarizə tədbirlərinə Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsindən 1 milyard 985,6 milyon manat vəsait istifadə olunub. Həmin vəsaitdən 612,5 milyon manatı koronavirusla mübarizə tədbirlərində iştirak edən tibb işçilərinə əlavənin ödənilməsinə, zəruri tibbi ləvazimatların və avadanlıqların, dərman vasitələrinin alınmasına, çarpayı fondunun artırılması və ixtisaslaşmış xəstəxanaların fəaliyyətlərinin təmin edilməsinə, karantin nəzarətinə götürülmüş şəxslərə karantin müəssisələrində göstərilən xidmətlərlə bağlı xərclərin ödənilməsinə yönəldilib.

Bununla yanaşı, qlobal pandemiya ilə bağlı dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə, sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı tədbirlərin maliyyələşdirilməsi üçün 1 milyard 334,1 milyon manat vəsait sərf olunub.

Qeyd olunan vəsait hesabına pandemiyadan zərərçəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə dəstək məqsədilə özəl sektorda çalışan 243 min nəfərdən çox işçinin əməkhaqqının müəyyən hissəsinin ödənilməsi, 107 mindən çox fərdi (mikro) sahibkara maliyyə dəstəyinin göstərilməsi, sahibkarlıq subyektlərinə bank kreditləri üzrə dövlət zəmanətinin verilməsi və kredit faizlərinin subsidiyalaşdırılması, sahibkarlığın inkişafına əlavə dövlət dəstəyinin göstərilməsi, xüsusi karantin rejiminin tətbiq olunması ilə əlaqədar işsiz kimi qeydiyyatda olan şəxslərə birdəfəlik ödəmənin verilməsi şərtləri və qaydasına uyğun olaraq 190 manat məbləğində birdəfəlik ödəmənin verilməsi, əhalinin məşğulluq imkanlarının artırılması məqsədilə əlavə ödənişli ictimai iş yerlərinin yaradılması, həyati vacib sərnişindaşıma və digər sərnişindaşıma fəaliyyəti göstərən hüquqi şəxslərə maliyyə dəstəyinin verilməsi, güzəştli ipoteka kreditləri üzrə ayrılan vəsaitin artırılması, respublikanın təhsil müəssisələrində normativ təhsil müddətində ödənişli əsaslarla əyani təhsil alan və sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin 2020-ci ildə tədris semestrləri (yarımillikləri) üçün təhsil haqqı xərclərinin ödənilməsi, əhaliyə güzəştli işıq limitinin 2020-ci ilin aprel-may aylarında 100 kvts. həcmində artırılması ilə bağlı xərclər maliyyələşdirilib.

2020-ci il ərzində koronavirus pandemiyası ilə bağlı beynəlxalq miqyasda tədbirlərin dəstəklənməsi məqsədilə 39,3 milyon manat məbləğində, o cümlədən Ümumdünya Səhiyyə Təşkilatına 17 milyon manat, UNESCO və ICESCO təşkilatlarına 3,4 milyon manat və 18 xarici ölkəyə 18,9 milyon manat beynəlxalq yardımlar göstərilib.

Azərbaycan Respublikasında əhalinin mənzilə olan tələbatının ödənilməsi və vətəndaşların güzəştli şərtlərlə mənzil əldə etməsi xərcləri üçün 143,9 milyon manat vəsait yönəldilib. Həmin vəsaitin 72,9 milyon manatı vətəndaşların güzəştli şərtlərlə mənzil əldə etməsi məqsədilə sosial mənzillərin tikintisinə, 71 milyon manatı isə ipoteka layihələrinin maliyyələşdirilməsinə sərf edilib.

Dövlət büdcəsindən hərbi qulluqçuların mənzillə təmin olunması ilə bağlı xərclər üçün 35 milyon manat vəsait ayrılıb və həmin vəsait hesabına Mənzil İnşaatı Dövlət Agentliyinin sifarişi ilə inşa edilən Bakı və Naxçıvan şəhərlərində 485 ədəd tam təmirli mənzil alınmış və hərbi qulluqçuların mülkiyyətinə verilməsi rəsmiləşdirilib.

Qaçqın və məcburi köçkünlərin sosial müdafiəsinin gücləndirilməsi və yaşayış şəraitinin yaxşılaşdırılması üçün 2020-ci ilin icmal və dövlət büdcələrindən üst-üstə 765,6 milyon manat vəsait yönəldilib ki, onun da 565,6 milyon manatının dövlət büdcəsindən, 200 milyon manatının isə Dövlət Neft Fondunun büdcəsindən ayrılmış vəsait təşkil edir. Qeyd olunan vəsaitin 360,2 milyon manatı qaçqın və məcburi köçkünlərə verilən müavinətlərə (331,5 milyon manat), bəzi kommunal xidmətlərin dəyərinin ödənilməsinə (17,1 milyon manat), qeyri-maddi aktivlərin, maşın və avadanlıqların alınmasına (4,4 milyon manat), cari təmir, bank xidmətləri xərclərinin ödənilməsi, digər xidmətlərin və ödənişlərin maliyyələşdirilməsinə (5,2 milyon manat) yönəldilib, 407,4 milyon manatı isə məcburi köçkünlər üçün mənzillərin və evlərin tikintisinə istifadə olunub.

Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət tərəfindən maliyyə dəstəyi olaraq Azərbaycan Respublikasında ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı tədbirlərin maliyyələşdirilməsi üçün 402,7 milyon manat vəsait yönəldilib ki, bu da 2019-cu illə müqayisədə 63,3 milyon manat və ya 18,7 faiz çoxdur. 2020-ci il yanvarın 1-dən fermerlərə subsidiyaların verilməsi üçün tətbiq edilmiş yeni mexanizmə uyğun olaraq kənd təsərrüfatı məhsulları istehsalçılarına 6 adda yeni subsidiya, o cümlədən əkin, məhsul, toxum, heyvan, arı və barama subsidiyaları verilməsinə başlanılıb. Bundan başqa, kənd təsərrüfatı məhsulları istehsalçıları tərəfindən lizinqə götürülən və satınalınan kənd təsərrüfatı texnikasının ilkin dəyərinin 20 faizi ödənildikdə, dövlət büdcəsinin vəsaiti hesabına onların ilkin dəyərinin 40 faizi həcmində güzəşt tətbiq edilib. Qeyri-neft məhsullarının ixracının təşviqi üçün 2020-ci ilin dövlət büdcəsindən 12,7 milyon manat vəsait sərf olunub.

2020-ci ildə dövlət büdcəsindən siyasi partiyalara 3,6 milyon manat maliyyə yardımı ayrılıb.

Kütləvi informasiya vasitələrinin ("Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti, İctimai Televiziya və Radio Yayımları Şirkəti, "Mir" Dövlətlərarası Teleradio Şirkəti Azərbaycan Milli Nümayəndəliyi, Milli Televiziya və Radio Şurası, Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu) fəaliyyətinin təmin olunması məqsədilə 2020-ci ilin dövlət büdcəsindən üst-üstə 50,6 milyon manat vəsait yönəldilib.

Vətəndaş cəmiyyətinin möhkəmlənməsinə və davamlı inkişafına nail olunması, ictimai əhəmiyyətli problemlərin həlli ilə bağlı qeyri-hökumət təşkilatlarına maliyyə yardımının göstərilməsi üçün 2020-ci ilin dövlət büdcəsindən 5,4 milyon manat vəsait ayrılıb.

2020-ci ilin dövlət büdcəsindən investisiya xərclərinə 4 milyard 751,7 milyon manat vəsait yönəldilib. Bu mənbədən elm, təhsil, səhiyyə, mədəniyyət, idman və digər sosial-mədəni və məişət təyinatlı obyektlərin tikintisinə və yenidən qurulmasına 648,4 milyon manat, müdafiə və hüquq mühafizə, inzibati, idarəetmə və digər təyinatlı obyektlərin tikintisi, əsaslı təmiri və yenidən qurulması üçün dövlət əsaslı vəsait qoyuluşu xərclərindən 755,1 milyon manat vəsait istifadə olunub.

Ölkənin əsas enerji, su və qaz təchizatı, nəqliyyat, kommunal, meliorasiya, kənd təsərrüfatı infrastrukturlarının tikintisinə və yenidən qurulmasına 2 milyard 514,4 milyon manat vəsait yönəldilib.

Dövlət büdcəsindən ayrılmış investisiya xərcləri ilə yanaşı, Azərbaycan hökuməti tərəfindən xaricdən cəlb olunmuş kreditlər hesabına 798,9 milyon manat məbləğində vəsait ölkəmizdə yolların, kanalizasiya sistemlərinin, su təchizatı, kənd təsərrüfatı və digər infrastrukturların tikintisinə və yenidən qurulmasına istifadə olunub.

Hesabat ilində dövlət büdcəsinin əsaslı vəsait qoyuluşu xərclərindən Naxçıvan Muxtar Respublikasında həyata keçirilən investisiya layihələrinin maliyyələşdirilməsi üçün 34,9 milyon manat vəsait sərf edilib.

Hesabat ilində əvvəlcədən büdcədə nəzərdə tutulmayan bir sıra dövlət əhəmiyyətli tədbirlərin maliyyələşdirilməsi üçün Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan 436,2 milyon manat vəsait yönəldilib. Bu vəsaitin 233,1 milyon manatı təhsil, səhiyyə, idman və digər sosial-mədəni və məişət təyinatlı obyektlərin tikintisinə və yenidən qurulmasına, 142,9 milyon manatı ölkənin əsas enerji, su və qaz təchizatı, nəqliyyat, kommunal, meliorasiya, kənd təsərrüfatı infrastrukturlarının tikintisi və yenidən qurulmasına, 60,2 milyon manatı isə hüquq-mühafizə orqanlarının maddi-texniki bazasının möhkəmləndirilməsinə və digər zəruri ehtiyacların maliyyələşdirilməsinə yönəldilib.

2020-ci il dövlət büdcəsinin icrası prosesində ölkənin sosial-iqtisadi həyatı üçün vacib olan bir sıra layihələrin və tədbirlərin həyata keçirilməsi məqsədi ilə "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 19.6-cı maddəsinə müvafiq olaraq 2020-ci il dövlət büdcəsində birdəfəlik təyinatlı xərclər üzrə qənaət olunmuş vəsait və dövlət büdcəsinin Ehtiyat Fonduna yönəldilmiş vəsait də nəzərə alınmaqla, dövlət büdcəsinin Ehtiyat Fondundan 631,7 milyon manat vəsait istifadə olunub. Bu vəsaitin 384,3 milyon manatı koronavirus (COVID-19) pandemiyasının qarşısının alınmasına, 139,6 milyon manatı xüsusi müdafiə təyinatlı layihələrin maliyyələşdirilməsinə, 31,2 milyon manatı bir sıra sosial, 53,2 milyon manatı nəqliyyat, enerji, kənd təsərrüfatı, su təchizatı və sair təyinatlı infrastruktur layihələrinin, 23,4 milyon manatı isə digər zəruri tədbirlərin maliyyələşdirilməsinə yönəldilib.

2020-ci ildə dövlət büdcəsinin "Avtomobil Yolları" Məqsədli Büdcə Fondunun xərcləri tam məbləğdə və ya 300 milyon manat icra edilib ki, bu vəsait də əsasən ölkə ərazisində ümumi istifadədə olan respublika və yerli əhəmiyyətli avtomobil yollarının saxlanılması və istismarına yönəldilib. 2020-ci ildə dövlət borcuna xidmətlə əlaqədar xərclərə dövlət büdcəsində nəzərdə tutulmuş 1 milyard 726,2 milyon manat vəsait yönəldilərək istifadə olunub.

Ötən ilin dövlət büdcəsində beynəlxalq fəaliyyət, beynəlxalq tədbirlərin keçirilməsi, beynəlxalq təşkilatlara üzvlüklə bağlı və digər xərclərə 179,7 milyon manat vəsait sərf olunub. 2020-ci ildə xarici ölkələrdə fəaliyyət göstərən Azərbaycan Respublikasının 73 diplomatik nümayəndəlik və konsulluqların, xarici ölkələrdə ticarət nümayəndəliklərinin fəaliyyətinin maliyyələşdirilməsi üçün 113,3 milyon manat vəsait yönəldilib.

2020-ci ildə dövlət büdcəsinin kəsiri 1 milyard 737,1 milyon manat, ümumi daxili məhsulun 2,4 faizini təşkil edib və ya proqnozlaşdırılan kəsir məbləğindən 1 milyard 631,1 milyon manat və ya 48,4 faiz az olub. Kəsirin qarşılanması aşağıdakı mənbələr, o cümlədən 800,5 milyon manatı xaricdən cəlb edilmiş kreditlər, 283,6 milyon manatı qiymətli kağızların yerləşdirilməsindən daxilolmalar, 591,5 milyon manatı 2020-ci il yanvarın 1-nə olan dövlət büdcəsinin vahid xəzinə hesabının qalığı və 61,5 milyon manatı özəlləşmədən daxilolmalar hesabına həyata keçirilib.

Operativ məlumatlara əsasən, 2020-ci ilin icmal büdcəsinin gəlirləri 24 milyard 462,5 milyon manat təşkil edib ki, bu da proqnoza nisbətən 2 milyard 99,6 milyon manat və ya 9,4 faiz çoxdur.

2020-ci ilin icmal büdcəsinin xərcləri 29 milyard 160,3 milyon manat olub ki, bu da 2019-cu illə müqayisədə 2 milyard 654,2 milyon manat və ya 10 faiz çoxdur. İcmal büdcənin kəsiri 4 milyard 697,8 milyon manat təşkil edib ki, bu da proqnoza nisbətən 40,9 faiz azdır.

# İqtisadiyyat Nazirliyi Dünya Bankı ilə əməkdaşlığın inkişaf istiqamətlərini müzakirə edib

**İqtisadiyyat naziri Mikayıl Cabbarovun Dünya Bankının Azərbaycan üzrə meneceri Sara Mayklın rəhbərlik etdiyi nümayəndə heyəti ilə videokonfrans formatda görüşü keçirilib.**




Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdə ölkəmizin Dünya Bankı ilə əməkdaşlığa önəm verdiyi və əlaqələrin çoxşaxəli olduğu vurğulanıb. Bankla əməkdaşlığın inkişaf istiqamətləri və Azərbaycanda aparılan islahatlara dəstək barədə müzakirələrin aparıldığı görüşdə Dünya Bankının ölkəmiz üzrə hazırlayacağı xüsusi iqtisadi və maliyyə araşdırmalarının əhəmiyyəti qeyd edilib, araşdırmalar üzrə əsas aspektlər diqqətə çatdırılıb. Bildirilib ki, Bankın hazırlayacağı Ölkə İqtisadi Memorandumu (Country Economic Memorandum-CEM), Maliyyə Sektorunun Qiymətləndirilməsi Proqramı (Financial Sector Assessment Program - FSAP) və Sistematik Ölkə Diaqnostikası (Systematic Country Diagnostic - SCD) araşdırmaları prioritet inkişaf hədəflərinə nail olunmasına töhfə verəcək. Görüşdə qeyd olunan araşdırmaların hazırlanmasında İqtisadiyyat Nazirliyi ilə əməkdaşlıq məsələləri barədə fikir mübadiləsi aparılıb.

# Raket və Artilleriya Qoşunlarının hərbi hissələrinə media-tur təşkil edilib

Fevralın 9-da kütləvi informasiya vasitələri nümayəndələrinin Azərbaycan Ordusunun Raket və Artilleriya Qoşunlarının hərbi hissələrinə səfəri təşkil olunub.





AZƏRTAC xəbər verir ki, səfər çərçivəsində şəxsi heyət və müasir artilleriya qurğuları ilə tanış olan media nümayəndələri praktiki tapşırıqların icrasını canlı izləyiblər.

Əvvəlcə hərbi hissənin şəxsi heyətinə şərti həyəcan siqnalı verilib. Həyəcan siqnalı ilə qaldırılan bölmələrin hərtərəfli döyüş hazırlığı, qarşıya qoyulan vəzifələri qısa müddətdə yerinə yetirmək bacarıqları və manevr imkanları praktiki nümayiş etdirilib.

Azərbaycan Ordusunun Raket və Artilleriya Qoşunlarının komandanı, general-mayor Ağamir Sultanov jurnalistlərə müsahibəsində deyib ki, düşmənin təxribatlarının qarşısını almaq məqsədilə ötən il sentyabrın 27-də Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən "Dəmir yumruq" adlı uğurlu əks-hücum əməliyyatı ilə başlayan 44 günlük Vətən müharibəsi Azərbaycanın tam qələbəsi ilə başa çatıb. Vətən müharibəsi Azərbaycan Ordusunun Raket və Artilleriya Qoşunlarının kütləvi atəş zərbəsi ilə başlayıb.

General-mayor bildirib ki, kütləvi atəş zərbəsi zamanı düşmənin müdafiə dərinliyində olan bütün hərbi obyektləri, o cümlədən hava hücumundan müdafiə, radioelektron mübarizə vasitələri, idarəetmə məntəqələri, reaktiv artilleriya və minaatan batareyaları, ehtiyatları məhv edilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov jurnalistlərə müsahibəsində qeyd edib ki, Vətən müharibəsində Raket və Artilleriya Qoşunları digər qoşun növləri ilə birlikdə düşmənin dərinlikdə yerləşən hədəflərini dəqiq atəş zərbələri ilə sıradan çıxarıb. Müharibədə şücaət göstərmiş Raket və Artilleriya Qoşunlarının dörd minədək hərbi qulluqçusu "Vətən müharibəsi qəhrəmanı" fəxri adı, müxtəlif orden və medallarla təltif edilib.

Anar Eyvazov diqqətə çatdırıb ki, Vətən müharibəsində Raket və Artilleriya Qoşunlarının 184 hərbi qulluqçusu şəhid olub və bir neçə hərbçisi xəsarət alıb. Müharibə başa çatdıqdan sonra da Müdafiə Nazirliyi tərəfindən təsdiqlənmiş plana uyğun olaraq hazırda daimi dislokasiya məntəqələrində və işğaldan azad edilmiş ərazilərdə yerləşdirilən bölmələrimiz döyüş hazırlığı ilə məşğul olur, yüksək texnoloji silahların imkanlarını və istifadə qaydalarını mənimsəyirlər. Şəxsi heyətə həmin silahlar praktiki şəkildə öyrədilir. Beləliklə, Raket və Artilleriya Qoşunlarının şəxsi heyətinin peşəkarlığı təmin edilir.

Raket və Artilleriya Qoşunlarının zabiti, polkovnik Pərviz İbrahimov jurnalistlərə müsahibəsində deyib ki, Vətən müharibəsinin nəticələri Azərbaycan Ordusunun qarşıya qoyulmuş döyüş tapşırıqlarını müvəffəqiyyətlə icra etdiyini göstərir. Hərbi hissəmiz hazırda döyüş hazırlığı proqramına uyğun olaraq bölmələrin səhra vərdişlərinin daha da artırılması istiqamətində fəaliyyətini davam etdirir.

Polkovnik vurğulayıb ki, indi qarşımızda gecə məhdud görmə şəraitində dağlıq ərazilərdə atəş tapşırıqlarını yerinə yetirmək, həmçinin pilotsuz uçuş aparatları ilə qarşılıqlı fəaliyyəti genişləndirmək, onlardan alınan kəşfiyyat məlumatlarını təhlil etmək vəzifələri dayanır. Hazırda çöl dərsləri ilə məşğul olan şəxsi heyətin mənəvi-psixoloji vəziyyəti yüksək səviyyədədir.

# Xorvatiyalı jurnalist azad edilmiş torpaqlarda vandalizm aktlarına məruz qalmış abidələrimiz barədə məlumatlandırılıb

Fevralın 10-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Xorvatiyanın "Veçerniy List" qəzetinin jurnalisti Hasan Haydar Diabla görüşüb.

Komitənin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Mübariz Qurbanlı xorvatiyalı jurnalistin suallarını cavablandırıb.

Müsahibəsində Azərbaycandakı dini vəziyyət, ölkəmizdə mövcud olan dinlərin tarixi, dövlət tərəfindən dini sahəyə göstərilən diqqət və qayğı, işğaldan azad olunmuş torpaqlarda Ermənistan tərəfindən vandalizm aktlarına məruz qalmış tarixi-dini abidələr barədə geniş məlumat verib.

Bildirilib ki, Avropa ilə Asiyanın qovuşuğunda, tarixi İpək Yolunun üzərində yerləşən Azərbaycan müsəlmanların, xristianların, yəhudilərin, həmçinin digər dinlərin nümayəndələrinin əsrlərlə dinc şəraitdə yaşadıqları və tərəqqi etdikləri dünyəvi ölkədir. Azərbaycanda müxtəlif mədəniyyətlərə və dinlərə münasibətdə hörmət və tolerantlıq ənənəsi var. Müxtəlif dini icmalar ölkəmizin inkişafında fəal rol oynayırlar.

Dövlət siyasətində tolerant və multikultural dəyərlərin təşviqinin çox mühüm yer tutduğunu vurğulayan komitə sədri bildirib ki, bu ənənə Ulu Öndər Heydər Əliyevin siyasi kursunda da önəmli yer tutub və hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Müxtəlif dini konfessiyalar arasındakı harmoniyaya diqqət çəkən M.Qurbanlı bu birliyin erməni işğalçıları üzərində Azərbaycanın qələbəsi ilə nəticələnən 44 günlük müharibə zamanı özünü daha qabarıq şəkildə büruzə verdiyini xüsusi qeyd edib. Bildirilib ki, Azərbaycanda yaşayan bütün dinlərin nümayəndələri Vətən müharibəsində könüllü olaraq iştirak ediblər.

Eyni zamanda qeyd edilib ki, ermənilər işğal müddətində Azərbaycan türklərinin minilliklər ərzində yaratdığı tarixi və mədəni abidələrə qarşı vandalizm aktları törədərək qədim Alban dövlətinə aid abidələri ciddi saxtakarlıqlara məruz qoyub, qriqoryanlaşdırmağa çalışıblar. M.Qurbanlı yüzlərlə dini abidəmizin - məscid, kilsə, ziyarətgah və qəbiristanlıqların dağıdıldığını, məscidlərimizin tövlə halına salındığını söyləyib.

Ətraflı müsahibəyə görə təşəkkürünü bildirən jurnalist işğaldan azad olunan torpaqlarımıza səfər edəcəyini, bu faktları işıqlandıracağını bildirib.

Sonda qonağa DQİDK-nın ölkəmizdəki dini tolerantlıq mühiti və maddi-mədəni irsimizə qarşı törədilən erməni vandalizmi haqqında nəşr etdirdiyi kitablar təqdim olunub.

# İnkişafın yeni konturları

Əvvəli 1-ci səh.

Yeni sosial-iqtisadi inkişafın bazasını müəyyən edən milli prioritetlərin qorunması və reallaşdırılmasına xidmət etmək isə hər birimizin ümdə vəzifəsidir.

Ümumiyyətlə, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" ölkəmizin bütün sahələrdə sürətli inkişafına təkan verən vəzifələrin müəyyən olunması baxımından xüsusi əhəmiyyətə malikdir. Bu sənəd Azərbaycanın sosial-iqtisadi inkişafının Vətən müharibəsindən sonrakı dövrdə yaranmış yeni şərtlərə uyğun başlıca istiqamətlərini özündə ehtiva edir. Çünki Vətən müharibəsindən sonra regionda tamamilə yeni iqtisadi imkanlar yaranıb. Azərbaycanın əldə etdiyi zəfər nəticə etibarilə həm də Cənubi Qafqazın tarixində yeni bir dövrün başlaması üçün unikal imkanlar açıb. Təbii ki, yaranmış yeni situasiya həm də qarşıya yeni vəzifələr qoyur. Bu sənəd həmin vəzifələrin müvəffəqiyyətlə həyata keçirilməsinə imkan yaradacaq.

Onu da vurğulayaq ki, müəyyən olunmuş prioritetlər sırasında işğaldan azad olunmuş ərazilərə qayıdışın tarixi və siyasi əhəmiyyəti var. Çünki Ermənistanın işğalı altında qalan rayonların ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, eyni zamanda beynəlxalq və regional əhəmiyyətli nəqliyyat-logistika dəhlizlərinin fəaliyyətə başlaması həm Azərbaycan iqtisadiyyatına əlavə güc qatacaq, həm də bölgədə qarşılıqlı faydalı əməkdaşlıq mühitinin formalaşmasını şərtləndirəcək.

Son 17 ildə sosial-iqtisadi və mədəni həyatda böyük təkamül yolunu inamla keçən Azərbaycanın iqtisadiyyatı dinamik inkişaf edib, beynəlxalq nüfuzu əhəmiyyətli dərəcədə artıb, cəmiyyətdə dövlətçilik ənənələri güclənib. Geniş sosial-iqtisadi infrastruktur quruculuğunun uğurla həyata keçirilməsi ölkənin hərbi qüdrətinə də müsbət təsir göstərib. Torpaqlarımızın işğaldan azad edilməsində və ölkəmizin ərazi bütövlüyünün bərpasında bu amillərin həlledici rolu olub. Azərbaycanın hərb və diplomatiya sahəsində əldə etdiyi uğurlar bu gün yeni, sistemli və davamlı islahatlara yol açır.

44 günlük Vətən müharibəsində əldə olunan qələbə ilə Azərbaycanda mahiyyət etibarı ilə yeni inkişaf mərhələsi başlandı. Əldə olunan qələbə iqtisadiyyatda yeni inkişaf perspektivləri müəyyən edib.

Bir sözlə, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" Azərbaycanın davamlı yüksəlişinə böyük töhfələr verəcək. Milli prioritetlərin reallaşması həm də milli birliyimizin daha bir təntənəsi kimi öz təzahürlərini tapacaq. Çünki bu gün Azərbaycanda mövcud olan milli həmrəylik, dövlət və xalq arasında qarşılıqlı etimad istənilən vəzifəni müvəffəqiyyətlə yerinə yetirməyə imkan yaradır.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

## Biz birlikdə güclüyük!

# Pandemiya ilə ən effektiv mübarizə üsulu vaksinasiyadır

Əvvəli 1-ci səh.




Hər hansı bir ölkədə virusa yoluxma riski yüksək olan insanların, səhiyyə işçilərinin, yaşlıların peyvəndlənməsinə mane olduqca yoluxma bitməyəcək".

O bildirib ki, buna görə də ÜST və onun tərəfdaşları COVAX müəssisəsini işə salıb və həmin müəssisənin qarşıdakı həftələr və ya bir neçə ay ərzində vaksin ala bilməyən ölkələri peyvəndlə təmin etməyə başlayacağına ümid edir.

Dünya ölkələri ilə yanaşı, Azərbaycanda da vaksinasiyaya başlanılıb. Yanvarın 18-dən start verilən prosesə ilk olaraq səhiyyə işçiləri cəlb edilib. Bildirək ki, ölkəmizdə vaksinasiya dövlət hesabına və könüllülük prinsipi əsasında aparılır və Çinin "Sinovac" şirkətinin istehsal etdiyi "CoronoVAC" vaksinindən istifadə olunur.

Fevralın 8-dən isə 65 yaşdan yuxarı şəxslərin COVID-19 infeksiyasına qarşı vaksinasiya prosesi start götürüb. Bu kateqoriyadan olan şəxslər randevu.its.gov.az saytı vasitəsi və ya ərazi üzrə poliklinikanın qeydiyyat şöbəsi ilə telefon əlaqəsi saxlayıb öz məlumatlarını verərək qeydiyyatdan keçə bilərlər. Qeydiyyatdan keçən hər bir vətəndaşa SMS məlumat göndəriləcək. Poliklinikaya müraciət zamanı isə həmin şəxslər qeydiyyatdan keçirilərək onlara məntəqəyə gəlməli olduğu gün və dəqiq vaxt bildiriləcək.

Vaksinasiyanın ilk dozası üçün randevu götürüldükdə avtomatik 2-ci doza üçün də 28 gün sonra həmin müəssisəyə və həmin saat aralığına randevu seçilir. İkinci dozanın vurulma tarixi və digər zəruri məlumatlar vətəndaşlara tibb məntəqəsində təqdim edilən "Məlumat forması"nda öz əksini tapsa da, əlavə olaraq SMS vasitəsilə ikinci dozanın vurulma tarixi təkrar bildiriləcək.

Xatırladaq ki, "Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası"nda COVID-19 infeksiyası əleyhinə vaksinasiya ilə əhatə olunan əhali qrupları sosial cəhətdən və tibbi cəhətdən yüksək risk qrupu olaraq ayrılır. Sosial cəhətdən yüksək risk qrupuna səhiyyə işçiləri, hüquq mühafizə orqanlarının əməkdaşları, hərbi qulluqçular, təhsil və sosial sektorda çalışanlar, sosial müəssisələrdə daimi yaşayanlar, "ASAN xidmət", "DOST" mərkəzləri, ictimai nəqliyyat sektorunun, telekommunikasiya operatorları və provayderlərin, poçt sahəsində, bank sektorunda birbaşa əhali ilə təmasda olan işçilər aiddirlər.

Tibbi cəhətdən yüksək risk qrupuna yaşı 65-dən yuxarı olan, yəni yaşlı əhali, tənəffüs sisteminin xroniki xəstəlikləri olanlar, xroniki hemodializ xəstələri, II tip şəkərli diabetdən əziyyət çəkən 50 yaşdan yuxarı əhali, 18 yaşından yuxarı piylənmədən əziyyət çəkənlər aiddir.

Məlumat üçün bildirək ki, bu ayın 8-də Səhiyyə Nazirliyi "Sputnik V" vaksininin və "AstraZeneca" şirkətinin Oksford Universiteti ilə birgə işləyib hazırladığı vaksinin birgə tətbiqi üçün Azərbaycanda kliniki tədqiqatların aparılması üçün icazə verib. Bu tədqiqatların cari ilin fevral ayının sonuna qədər başlanılması planlaşdırılır.

Tədqiqatlar "Sputnik V" vaksininin və Oksford Universiteti ilə birgə "AstraZeneca" şirkəti tərəfindən işlənib hazırlanmış vaksinin kombinasiya edilmiş tətbiqinin immunogenliyinin və təhlükəsizliyinin qiymətləndirilməsini nəzərdə tutur. Tədqiqat proqramı bir neçə ölkənin ərazisində 6 ay davam edəcək. Bu tədqiqatların aparılmasına hər bir ölkədən 100 könüllünün cəlb edilməsi planlaşdırılır.

Ölkəmizdə pandemiyaya qarşı əldə olunan müsbət tendensiya sərt karantin rejiminin tədricən yumşaldılmasına da şərait yaradıb. Xüsusilə təhsil sahəsində əyani tədrisin bərpası ilə bağlı bir çox açılımlar həyata keçirilib. Fevralın 1-dən Bakı, Sumqayıt, Abşeronda ibtidai təhsil, məktəbəhazırlıq, icma əsaslı qrupların fəaliyyətinə mərhələli şəkildə başlanılıb. İri şəhərlərdə tədris həftədə 3 dəfə, digər rayonlarda isə həftədə 4 və 5 dəfə olmaqla bərpa edilib.

Fevralın 8-dən isə Bakı və Sumqayıt şəhərləri, Abşeron rayonu istisna olmaqla ölkənin digər şəhər və rayonlarında ümumi təhsil müəssisələrində tədris ümumi orta təhsil səviyyəsində (I-IX siniflərdə) həftədə 5 dəfə olmaqla həyata keçirilir. Layihə tutumu və şagird sıxlığı təhsilalanlar arasında fiziki məsafəni gözləməyə imkan verməyən ümumi təhsil müəssisələrində isə tədris ümumi orta təhsil səviyyəsində (I-IX siniflərdə) həftədə 3 dəfə olmaqla keçirilir. Uşaq-gənclər inkişaf mərkəzlərində aşağı yaş qruplarında (I-IV siniflər) dərnək məşğələləri həftədə 2 dəfə olmaqla ənənəvi formada keçirilir.

15 fevral tarixindən isə Bakı və Sumqayıt şəhərlərində, Abşeron rayonunda yerləşən ümumtəhsil müəssisələrinin məktəbəhazırlıq mərhələsində tədris həftədə 2 dəfə, ibtidai təhsil səviyyəsində (I-IV siniflərdə) həftədə 3 dəfə, ümumi orta təhsil səviyyəsində (V-IX siniflərdə) həftədə 2 dəfə, xüsusi məktəblərdə (I-IX siniflərdə) həftədə 5 dəfə olmaqla bərpa ediləcək.

Eyni zamanda bu ayın 15-dən Bakı şəhəri üzrə fəaliyyət göstərən dövlət və özəl uşaq bağçaları fəaliyyətini davam etdirəcəklər. Bununla bağlı Bakı Şəhər İcra Hakimiyyətindən bildirilib ki, artıq paytaxtda uşaq bağçalarının açılışına hazırlıq işləri sona çatıb. Qurumun Məktəbəqədər Təhsil Müəssisələri və Uşaq Evləri İdarəsinin tabeçiliyində olan bütün bağçalarda dezinfeksiya işləri aparılıb.

Bütün bağçalar tibbi maskalar, əlcəklər, hərarət ölçən aparatlar, dezinfeksiya məhlulları ilə təmin edilib. Hər gün bağçaya gələn işçi heyəti və uşaqların temperaturu ölçüləcək, tərbiyəçilər tez-tez valideynlərlə əlaqə saxlayacaqlar. Həftə sonu bütün bağçalarda tam dezinfeksiya işləri aparılacaq.

Onu da qeyd edək ki, virusun yayılmasının və onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə ölkə ərazisində xüsusi karantin rejiminin müddəti aprelin 1-dək uzadılıb. Xüsusi karantin rejiminin qüvvədə olduğu müddətdə ölkə üzrə bütün qapalı və açıq məkanlarda müvafiq qaydada tibbi maskadan istifadə məcburidir.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***




# Könüllülərin iştirakı ilə "Bir-birimizi qoruyaq!" kampaniyasına start verilib





Azərbaycan könüllüləri ölkədə karantin rejiminin yumşaldılması ilə əlaqədar xəstəliyin yayılmasının qarşısının alınması üçün dövlətimiz tərəfindən həyata keçirilən tədbirlərə töhfə vermək, eləcə də koronavirus (COVID-19) ilə mübarizədə yorulmadan fəaliyyət göstərən polis əməkdaşlarına dəstək məqsədilə "Bir-birimizi qoruyaq!" kampaniyasına yenidən start veriblər.



AZƏRTAC xəbər verir ki, Azərbaycan Könüllü Təşkilatları İttifaqının və Bakı Şəhər Baş Polis İdarəsinin birgə təşkilatçılığı ilə keçirilən kampaniya çərçivəsində könüllülər polis əməkdaşları ilə birlikdə insanların kütləvi toplaşdığı yerlərdə sosial məsafənin təmin olunması, maskadan düzgün istifadə və pandemiya dövründə davranış qaydaları haqqında ictimai maarifləndirmə işləri aparıb, eləcə də vətəndaşlara qoruyucu tibbi ləvazimatlar, üzərində təbliğat və təşviqat yazıları əks olunmuş bukletlər paylayıblar. Kampaniyanın fevralın 12-dək davam etməsi nəzərdə tutulub.

Qeyd edək ki, Azərbaycan könüllüləri bundan əvvəl də pandemiya ilə mübarizə və vətəndaşlarımızın sağlamlığının qorunması məqsədilə Azərbaycan Könüllü Təşkilatları İttifaqının təşəbbüsü ilə "Könüllü qonşu", "Böyüklərimizi qoruyaq!", "Könüllü donor", "Gələcəyimizi qoruyaq!" kimi sosial layihələrin və yardım kampaniyalarının həyata keçirilməsində yaxından iştirak ediblər.

# İQTİSADİ İNKİŞAF və SOSİAL RİFAH

## BMT komissiyasının sessiyasında Azərbaycanda aparılan sosial islahatlar, pandemiya dövründə dəstək tədbirləri barədə məlumat verilib

**BMT-nin Sosial İnkişaf Komissiyasının 59-cu sessiyası öz işinə başlayıb. Fevralın 17-dək davam edəcək sessiyanın Nazirlər Forumunda çıxış edən Azərbaycanın əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov ölkəmizdə həyata keçirilən sosial islahatlar, pandemiya dövründə görülən sosial dəstək tədbirləri barədə məlumat verib.**

O, əhalinin rifahının yaxşılaşdırılmasının Azərbaycanda aparılan sosial-iqtisadi islahatların əsasını təşkil etdiyini, ölkədə sosial xərclərin mütəmadi artımının bunun əyani sübutu olduğunu deyib. Hətta qlobal böhranın davam etdiyi dövrdə əhalinin gəlirlərinin qorunmasına xüsusi diqqət yetirildiyini, sosial ödənişlərin artırılması tədbirlərinin davam etdirildiyini bildirib. 2019-cu ildə Azərbaycanda reallaşdırılan mühüm sosial dəstək paketlərindən bəhs edən A.Kərimov xüsusilə COVID-19 pandemiyasının hökm sürdüyü 2020-ci ildə bu paketlərin əhaliyə ciddi sosial dəstək olduğunu vurğulayıb. İcra olunan ünvanlı sosial yardım proqramının aztəminatlı ailələrin sosial müdafiəsinə dəstək olmaqla, yoxsulluğa qarşı mübarizədə də fəal bir vasitə olduğunu qeyd edib.

Nazir müavini COVID-19 pandemiyasının mənfi nəticələrini aradan qaldırmaq üçün hələ 2020-ci ilin aprelində ölkəmizdə qəbul olunmuş xüsusi proqramlar əsasında 4 istiqamətdə məşğulluğa və sosial rifaha dəstək məqsədilə həyata keçirilən, 5 milyon insanı və ya ölkə əhalisinin yarısını əhatə edən sosial dəstək tədbirlərini qeyd edib. A.Kərimov iş yerlərinin qorunması sahəsində aparılan işləri, xüsusi karantin dövründə işə çıxmayan 900 min işçinin əməkhaqlarının ardıcıl ödənildiyini, pandemiyaya qarşı mübarizədə sosial həmrəylik prinsiplərinə riayət edilməsi üçün işəgötürənlərlə aparılan işləri qeyd edib. O, özəl sektorda əmək müqavilələrinin sayında ötən il qeydə alınan ciddi artım, işsiz və xüsusi karantin rejiminə görə gəlirini itirən qeyri-formal işləyən şəxslərdən ibarət 600 min şəxsin birdəfəlik ödəmələrlə təminatı proqramı barədə məlumat verib.

## Ötən ay 195-2 Çağrı Mərkəzinə 2300-dən çox müraciət olub

2021-ci ilin yanvar ayında İqtisadiyyat Nazirliyinin 195-2 Çağrı Mərkəzinə 2300-dən çox müraciət daxil olub.

Müraciətlər əsasən, istehlakçıların hüquqlarının qorunması, sahibkarlıq fəaliyyəti, güzəştli kreditlərin, investisiya təşviqi və təsdiqedici sənədlərin, lisenziyaların verilməsi mexanizmləri, pandemiyadan zərərçəkən sahibkarlara dövlət dəstəyinin göstərilməsi, həmçinin nazirliyin səlahiyyətlərinə və fəaliyyət istiqamətlərinə dair digər məsələləri əhatə edib.

Çağrı Mərkəzinə daxil olmuş müraciətlər operativ şəkildə cavablandırılıb, araşdırma tələb edən müraciətlər üzrə nazirliyin aidiyyəti strukturları tərəfindən müvafiq tədbirlər görülüb və müraciət edən şəxslərə cavab verilib.

## Azərbaycan-Böyük Britaniya tərəfdaşlığının möhkəm bünövrəsi və geniş perspektivi var

### Bu tərəfdaşlıq işğaldan azad olunmuş ərazilərimizin bərpasında daha da möhkəmlənəcək



*Əvvəli 1-ci səh.*

Azərbaycanda qaz hasilatı ilə bağlı yeni hadisələri və keçən ilin dekabrında tamamlanmış infrastrukturu nəzərə alaraq bizim qarşımızda indi yeni imkanlar var. BP tərəfindən istismar olunan yataqlarda yeni mənbələrin kəşf ediləcəyinə ümid edirik. Bunun üçün bizim yaxşı perspektivlərimiz var. Bu, bizim ikitərəfli əlaqələrimizin, həmçinin digər ölkələrlə olan əməkdaşlığımızın mühüm hissəsidir. Biz region ölkələri, Avropa İttifaqı arasında çox nadir əməkdaşlıq formatını yaratmışıq və buna Birləşmiş Krallıq və Amerika Birləşmiş Ştatlarının hökumətləri tərəfindən güclü dəstək göstərilir".

Söhbət zamanı qeyd edildi ki, iki gündən sonra "Cənub qaz dəhlizi" Məşvərət Şurasının yeddinci iclası keçiriləcək. Şuranın əvvəlki toplantılarının da hamısına Azərbaycan evsahibliyi edib. Bu dəfə də layihənin nailiyyətləri nəzərdən keçiriləcək və gələcək əməkdaşlıq məsələlərindən danışılacaq.

Dövlət başçısı vurğuladı ki, Birləşmiş Krallıqdan Azərbaycana qoyulan investisiyalar ölkəmizi müasirləşdirməyə çox kömək edib. 30 milyard dollar həcmində olan bu investisiyalar əsasən enerji sektoruna yatırılıb. Bu da ölkəmizə iqtisadiyyatı şaxələndirmək üçün neft-qaz satışından əldə olunmuş gəlirlərdən müvafiq şəkildə istifadə etmək imkanını verib. Qarşıdakı illərdə isə diqqət yönəldiləcək əsas sahə Azərbaycanın qeyri-enerji sektorunun inkişafı olacaq.

İndiyədək 600 Britaniya şirkətinin Azərbaycanda qeydiyyatdan keçməsi sıradan bir fakt deyil. Bu, iki ölkə arasında iqtisadi tərəfdaşlığın şaxələndirilməsinin aydın göstəricisidir. Təsadüfi deyil ki, işğaldan azad edilmiş ərazilərimizdə yenidənqurma işləri istiqamətində də Böyük Britaniya şirkətləri ilə artıq təmaslara başlanıb. Bu şirkətlərdən biri həmin ərazilərdə şəhərsalmaya, infrastrukturun inkişaf etdirilməsinə cəlb olunub. Görüləcək işlər çoxdur, odur ki, iştirakçı şirkətlərin sayı da getdikcə artacaq.

Prezident İlham Əliyev bildirib ki, düşmənin dağıtdığı bölgələrdə bərpa olunan enerji sahəsinin inkişafı üçün böyük potensial var. Dövlət başçısı Böyük Britaniya şirkətlərinin bu sahədə də işləməyə maraq göstərdiyini vurğulayaraq deyib: "Beləliklə, biz artıq işğaldan azad edilmiş ərazilərdə gələcəyimizi planlaşdırırıq. Mən artıq bu əraziləri "yaşıl zona" ərazisi elan etmişəm. Biz insanların tələbatını ödəmək üçün külək, günəş və sudan əldə olunan enerjidən istifadə edəcəyik. Biz artıq elektrik enerjisi ixracatçısına çevrilmişik. Bu səbəbdən də bunun üçün potensial həqiqətən də çox yüksəkdir".

Hər iki tərəfdən qeyd olunub ki, ölkələrimiz arasında əməkdaşlıq üçün bir çox başqa sahələr də böyük əhəmiyyət kəsb edir. Odur ki, görüşdə postmünaqişə vəziyyəti, işğaldan azad olunmuş ərazilərdə "yaşıl enerji" konsepsiyasının tətbiqi, vətəndaş cəmiyyətinin inkişafı, gender bərabərliyi, energetika, o cümlədən bərpa olunan enerji sahəsində əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparılıb. Bu da gələcəkdə əməkdaşlığın daha geniş və möhkəm olacağına zəmin yaradır.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Ötən il 95 min pensiya, müavinət və təqaüd təyinatı e-qaydada aparılıb




Azərbaycanda qurulan elektron təyinat sistemləri vasitəsilə 2020-ci ildə e-qaydada 95 min pensiya, müavinət, təqaüd təyinatı aparılıb. Onlardan 11 mini pensiya, 84 mini müavinət və təqaüd təyinatları olub.

Beləliklə, bu sosial təminat növlərinə hüququ yaranan vətəndaşların müraciət etmələrinə və sənəd təqdim olunmasına ehtiyac qalmadan, proaktiv şəkildə onlara həmin sosial ödənişlər təyin edilib.

Xüsusilə postmüharibə dövründə şəhid ailələrinə sosial ödənişlərin (təqaüd, pensiya və ya müavinətin) təyinatı prosesinin operativ icrasında bu e-sistemlər xüsusi önəm kəsb edib. Həmin ailələrin müraciətinə ehtiyac qalmadan müvafiq ödənişlərin avtomatlaşdırılmış mexanizm üzərindən proaktiv təyinatı aparılır.

## Sahibkarlar əməkdaşlığa dəvət edilib

**Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AzPROMO) təşkilatçılığı ilə İxracatçılar Klubu çərçivəsində sahibkarlarla onlayn görüş keçirilib.**

azpromo
Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu

AzPROMO-nun yaydığı xəbərə görə, qeyri-neft sektorunun müxtəlif sahələrində fəaliyyət göstərən 50-dən çox şirkət nümayəndəsinin iştirak etdiyi görüşdə qeyri neft-qaz məhsullarının ixracının artırılması, sahibkarlarla əməkdaşlıq imkanlarının genişləndirilməsi, iş adamlarına fərdi yanaşmanın tətbiqi barədə fikir mübadiləsi aparılıb.

AzPROMO-nun rəhbəri vəzifələrini icra edən Yusif Abdullayev tətbiq ediləcək yeni iş prinsipləri barədə məlumat verib, fond tərəfindən sahibkarlara ixracın təşviqi və həcminin artırılması məqsədilə daha geniş xidmətlərin göstəriləcəyini bildirib. O, sahibkarları Azərbaycan məhsullarının xarici bazarlarda satışının artırılması istiqamətində sıx əməkdaşlığa dəvət edib.

Sonda sahibkarları maraqlandıran suallar cavablandırılıb, təkliflər dinlənilib, müzakirələr aparılıb.

## Qarabağ savaş meydanından tikinti meydançasına çevrilir

*Əvvəli 1-ci səh.*



İİTKM-nin təqdim etdiyi araşdırmada göstərilir ki, müasir dünyada insanların 54 faizi şəhərlərdə yaşayır və bu nisbətin 2050-ci ildə 66 faizə çatacağı gözlənilir. Əhalinin ümumi artımı ilə birlikdə urbanizasiya növbəti üç onillikdə daha 2,5 milyard insanın şəhərlərə axmasına səbəb olacaq. Şəhərlərə insan axının getdikcə güclənməsi və ekosistemlərin burada cəmləşməsi isə iqlim dəyişikliyinə təsir edir. Belə ki, qlobal istixana qazı tullantılarının 70 faizdən çoxu şəhərlərin payına düşür və bu üzdən şəhərlilər daha çox mənfi təsirlərə məruz qalırlar. "Ağıllı şəhərlər"in yaranma konsepsiyası da bu səbəbdən gündəmə gəlmişdir.

Dünya liderləri 2019-cu ildə Osakada keçirilən G20 Sammitində ilk dəfə "ağıllı şəhər" anlayışını ciddi müzakirə edərək bu istiqamətdə çalışan mövcud müəssisə-təşkilatları birləşdirə bilən ittifaqın yaradıldığını elan etmişlər. Həmçinin şəhərləri daha davamlı, əhatəli və təhlükəsiz hala gətirmək Birləşmiş Millətlər Təşkilatının Davamlı İnkişaf Məqsədlərindən biri olaraq müəyyənləşdirilmişdir.

Bu baxımdan yüksək texnologiyaların və "smart city" konsepsiyasının işğaldan azad olunmuş ərazilərdə tətbiqi Azərbaycana dünyada misligörünməmiş islahatları həyata keçirməyə imkan verəcək. İşğalçıların 30 il ərzində xaraba qoyduğu əraziləri Azərbaycan yaxın gələcəkdə ayağa qaldırmaqla bölgədə sülhün və iqtisadi islahatların davamlı olmasına çalışan dövlət imicini təsdiq edəcək. "Ağıllı şəhər" layihələrini tətbiq etməklə biz təhlükəsizlik, vaxt və rahatlıq, sağlamlıq, ətraf mühitin keyfiyyəti, sosial əlaqə və vətəndaş iştirakı, iş yerləri və yaşayış xərci kimi müxtəlif həyati keyfiyyət göstəricilərinə də təsir edə biləcəyik.

Bundan başqa, "ağıllı şəhər" texnologiyaları vətəndaşların sağlamlığını və rifahını yaxşılaşdırmaq gücünə sahib olmaqla bərabər, iqtisadi inkişafın yeni yollarını təqdim edir. Bərpa olunan ərazilərdə müasir texnologiyaların tətbiqi regionun bərpa prosesini sürətləndirəcək, texnoinvestorlar üçün xüsusi maraq kəsb edəcək, texnologiya əsaslı investisiyaların axınını sürətləndirməklə yanaşı, Qarabağda innovasiya mərkəzləri və texnoparkların yaradılmasının fundamental əsaslarını təşkil edəcək.

Faktiki olaraq qarşıdakı 10 ildə yüksət texnologiyalar işğaldan azad edilmiş ərazilərdə bütün sahələr üzrə tətbiq olunacaq. Götürək su məsələsini. Bütövlükdə ölkə iqtisadiyyatı üçün vacib sayılan su ehtiyatlarına qənaət edilməsi işğaldan azad olunmuş ərazilərdə yaradılacaq "ağıllı şəhər"lərdə mümkün olacaq. Ağıllı suvarma sistemləri, su sızıntısı, suyun keyfiyyəti və istehlakının izlənməsi kimi tətbiqetmələr bir gündə adambaşına su istehlakını 25-80 litr arasında saxlamağa imkan verəcək.

"Ağıllı şəhər" texnologiyaları böyük turizm potensialına malik Qarabağ regionunda bu sektoru da inkişaf etdirmək üçün əlavə imkan yaradacaq. Bu aspektdən ilk olaraq pilot layihə kimi Şuşanın "ağıllı şəhər" konsepsiyası çərçivəsində qurulması turizm potensialına əlavə üstünlük verəcək. Məsələn, Şuşada interaktiv məlumatverici lövhələrin quraşdırılması, turizm xidmətləri ilə bağlı mobil tətbiqlər, tarixi abidələr, keçmiş münaqişənin izləri haqqında məlumat verən robot-bələdçilər, intellektual nəqliyyat sistemi, "yaşıl enerji" istehsalının tətbiq olunması regiona xarici turist axınına şərait yaradacaq.

"Ağıllı şəhər"lə bərabər, postkonflikt ərazilərdə "ağıllı kənd" layihəsinin də həyata keçirilməsi nəzərdə tutulub. Beynəlxalq təcrübədə "smart village" dedikdə kənd əhalisinin qarşılaşdığı əsas problemlərin həlli və daha önəmli olan kənd ərazilərində yeni iqtisadi imkanların yaradılması başa düşülür. "Ağıllı kənd" texnologiyasının - rəqəmsallaşma, kənd hüdudlarından daha geniş çərçivədə böyük düşünmə, kəndlə ətraf bölgələr arasında yeni əməkdaşlıq formatının tətbiqi həmin ərazilərə sosial innovasiyaların, start-up tipli mikro və kiçik sahibkarlığın kənd əhalisi arasında geniş yayılmasına şərait yaradacaq.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

## Yanvar ayında sosial təminat üzrə əhaliyə 486,9 milyon manat vəsait ödənilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu tərəfindən yanvar ayında ümumilikdə 2,3 milyon şəxsə pensiya, müavinət, təqaüd, ünvanlı sosial yardım verilib.**

| Ödəniş növü | Ödənilən vəsait (manat) | 2020-ci ilin eyni dövrünə nisbətən artım (manat) |
|---|---|---|
| Cəmi | 486,9 mln. | 51,8 mln. (11,91%) |
| Pensiya | 365,5 mln. | 32,2 mln. (9,67%) |
| Müavinət, təqaüd | 102,5 mln. | 15,8 mln. (18,17%) |
| Ünvanlı sosial yardım | 18,9 mln. | 3,8 mln. (25,56%) |

Həmin sosial təminat növləri üzrə əhaliyə ötən ilin eyni dövrünə nisbətən 11,9% və ya 51,8 milyon manat çox olmaqla 486,9 milyon manat vəsait ödənilib.

Onu da bildirək ki, Prezident İlham Əliyevin sərəncamına əsasən, cari ilin əvvəlindən pensiyaların ötən ilin orta aylıq əməkhaqqının illik artım tempinə uyğun şəkildə 11,4% indeksləşdirilərək artırılması təmin edilib. Bu artımlar üçün fond tərəfindən əlavə olaraq illik 444 milyon manat sərf olunacaq.

## Azərbaycan məhsulları "Gulfood 2021" qida sərgisində nümayiş etdiriləcək

**Fevralın 21-25-də Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində "Gulfood 2021" beynəlxalq qida sərgisi keçiriləcək.**

Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondundan (AzPROMO) AZƏRTAC-a bildirilib ki, sərgidə qida sahəsində fəaliyyət göstərən şirkətlərimiz məhsullarını "Made in Azerbaijan" vahid ölkə stendində nümayiş etdirəcək.

Qeyd edək ki, Azərbaycan artıq 5-ci dəfə "Gulfood" beynəlxalq ərzaq sərgisində təmsil olunacaq.

## Ötən ayda ölkə üzrə 3,6 milyard manatlıq sənaye məhsulları istehsal olunmuşdur

**Sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2021-ci ilin yanvar ayında 3,6 milyard manatlıq və ya 2020-ci ilin müvafiq ayı ilə müqayisədə 3,4 faiz az sənaye məhsulu istehsal edilmişdir.**

Bu azalma neft-qaz sektorunda məhsul istehsalının 5,4 faiz azalması hesabına baş vermiş, sənayenin qeyri neft-qaz sektorunda isə məhsul istehsalı 12,8 faiz artmışdır.

Sənaye məhsulunun 64,9 faizi mədənçıxarma sektorunda, 29,2 faizi emal sektorunda, 5,3 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda, 0,6 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunmuşdur.

Mədənçıxarma sektorunda əmtəəlik neft hasilatı 4,0 faiz azalmış, əmtəəlik qaz hasilatı isə 7,9 faiz artmışdır. Emal sektorunda əczaçılıq məhsullarının istehsalı 10,4 dəfə, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı 3,9 dəfə, tütün məmulatlarının istehsalı 2,9 dəfə, ağacın emalı və ağacdan məmulatların istehsalı 2,8 dəfə, rezin və plastik kütlə məmulatlarının istehsalı 97,0 faiz, elektrik avadanlıqlarının istehsalı 96,3 faiz, maşın və avadanlıqların quraşdırılması və təmiri işləri 29,1 faiz, maşın və avadanlıqların istehsalı 23,5 faiz, kağız və karton istehsalı 21,4 faiz, tikinti materiallarının istehsalı 21,2 faiz, kimya sənayesi məhsullarının istehsalı 14,3 faiz, toxuculuq sənayesi məhsullarının istehsalı 10,9 faiz, metallurgiya sənayesi məhsullarının istehsalı 8,1 faiz, içkilərin istehsalı 4,8 faiz, qida məhsullarının istehsalı 3,0 faiz artmış, avtomobil, qoşqu və yarımqoşquların istehsalı 1,9 faiz, geyim istehsalı 10,3 faiz, neft məhsullarının istehsalı 20,4 faiz, hazır metal məmulatlarının istehsalı 24,9 faiz, mebel istehsalı 46,8 faiz, kompüter, elektron və optik məhsulların istehsalı 53,4 faiz, poliqrafiya məhsullarının istehsalı 60,3 faiz, sair nəqliyyat vasitələrinin istehsalı 66,7 faiz azalmışdır.

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda istehsalın həcmi 1,3 faiz, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda isə 2,2 faiz artmışdır.

# Yeniləşən Azərbaycanda yeni elmi təfəkkürə ehtiyac var

**Azərbaycan indi özünün yeni inkişaf mərhələsində inamla irəliləməkdədir. 44 gün ərzində mənfur düşmənlərin torpaqlarımızdan qovulması, min illərdir ki, ata-babalarımızın vətəni olan müqəddəs torpaqlarımızın qaytarılması ölkəmizdə böyük, mütərəqqi dəyişikliklərin getməsi üçün geniş imkanlar yaradıb. Həm beynəlxalq aləmdə xalqımızın nüfuzu xeyli yüksəlib, həm də ölkə daxilində, bütün insanlarımızda bir ruh yüksəkliyi yaranıb, onlarda sabaha olan inamı xeyli artırıb.**



Əhali arasında son iki yüz il ərzində torpaqlarımızın daima əlimizdən alınması hesabına yaranmış məğlubolma sindromu tamamilə ortadan götürülüb və hər kəsdə qalib xalqın nümayəndəsi ovqatı yaranıb.

Torpaqlarımızın düşmən caynağından azad olması bütün mənəvi, siyasi cəhətləri ilə yanaşı, həm də geniş iqtisadi, sosial imkanlar yaratması ilə də çox mühüm əhəmiyyət kəsb edir. Yaxın zamanlarda qaçqın, məcburi köçkün psixologiyası ilə çadırlarda, rahatlığı olmayan dar mənzillərdə, iqtisadi çətinlik içində yaşayan insanlar indi öz geniş torpaq sahələrində yüksək əhvali-ruhiyyə ilə fermerlik fəaliyyətinə başlayacaq, həm öz güzəranlarını xeyli yaxşılaşdıracaq, həm də ölkə iqtisadiyyatına mühüm töhfələr verəcəklər. Ölkə əhalisinin bir hissəsi bu ərazilərdə gedən tikinti, abadlıq, təsərrüfat işlərində yaxından iştirak edəcəklər, gedib o ərazilərdə məskunlaşacaqlar, torpaq sahibi olacaqlar. Azərbaycan tamamilə yeni inkişaf, tərəqqi imkanları qazanmışdır.

Ölkəmizdə yeni, müsbət bir siyasi iqlim yaranmışdır. Bu isə cənab Prezidentin qeyd etdiyi kimi, İkinci Qarabağ müharibəsində qazandığımız möhtəşəm qələbəni siyasi yollarla möhkəmlətmək imkanları yaradır. Son iki ildə ölkədə ciddi kadr islahatları aparılır, yeni gənc, beynəlxalq aləmdə baş verənlər barədə daha ətraflı, dərin məlumatlara malik olan savadlı, bacarıqlı komanda formalaşır. Artıq əhali də müsbət dəyişiklikləri hiss etməkdədir. İndi korrupsiya və rüşvətxorluğa qarşı mübarizə daha ciddi şəkildə aparılır. Bu neqativ hallara qarşı mübarizə xeyli gücləndirilmişdir. Ölkədə gedən abadlıq işləri uğurla davam etməkdədir.

Bütün dünyanı bürümüş koronavirus bəlası təəssüf ki, ölkəmizdə də müəyyən problemlər yaratdı. Amma buna qarşı da olduqca mühüm işlər görüldü. İlk gündən koronavirusla bağlı vəziyyət, gedən proseslər tam nəzarətə alındı. Dövlət təhlükənin qarşısını almaq üçün milyardlarla manat pul xərclədi və bu iş davam etməkdədir. Cənab Prezidentin qeyd etdiyi kimi, “Azərbaycan bu sınaqdan şərəflə çıxır.” Ötən il koronavirusla bağlı baş verənlər dünyanın bütün ölkələrinin iqtisadiyyatına ağır zərbələr vurdu. Azərbaycan isə ən az itki verənlər siyahısındadır. Hətta qeyri-neft sənayemizdə 11 faiz artım oldu. Kənd təsərrüfatımızda 2 faiz artım olub və bu artım yüksəlməkdədir. Orta əməkhaqqı, pensiya 13-14 faiz artıb. Dövlət öz valyuta fondunu qoruyub saxlaya bilib. Belə bir dövrdə ölkəmizin iqtisadiyyatında ümumi azalma cəmi 4 faiz olub. Azərbaycan əhalinin elektrik təchizatı səviyyəsinə görə dünyada ikinci yerdədir. Hökumətimiz islahatçılıq reytinqinə görə beşinci, uzunmüddətli strategiyalarına görə 10-cu yerdədir. Dünya Bankının “Doing Business” proqramında 190 ölkə arasında Azərbaycan 28-ci yerdədir. Gündən-günə inkişaf etməkdə olan həm neft, həm də qeyri-neft sektorlarının potensialı hesabına, ən yaxın illərdə daha yüksək yerlərdə olacağıq.

Dünyanın belə bir mürəkkəb, ağır dönəmində ölkəmiz başdan-başa yenilənir. Ənənəvi infrastruktur layihələri çox uğurla həyata keçirilməkdədir. Qazla, elektrik enerjisi ilə təmin olunma, avtomobil yollarının inşası, yeni dəmir yolu xətlərinin salınması, suvarma ilə bağlı layihələrin həyata keçirilməsi sahəsində mühüm uğurlar qazanılmışdır. Prezident indi əsas diqqəti həm də işğaldan azad olunmuş torpaqlarımızın abadlaşdırılmasına yönəldib. Artıq görüləcək işlərin əsas istiqamətləri müəyyənləşmişdir. Abadlıq işlərinə başlanmışdır və gündən-günə uğurla genişlənməkdədir. Xalqımız tam əmindir ki, yaxın zamanlarda Qarabağ dünyanın ən gözəl, abad ərazilərindən biri olacaq. Füzuli rayonunda böyük, müasir tələblərə cavab verən beynəlxalq hava limanının tikintisi üçün ciddi hazırlıq işləri gedir. Kəlbəcər və ya Laçın rayonunda da beynəlxalq hava limanları tikiləcəkdir. Bu o deməkdir ki, tezliklə Qarabağ artıq tamamilə başqa bir imiclə - sülh, əmin-amanlıq, abadlıq ünvanlı gözəl bir məkan kimi dünyanın diqqət mərkəzində olacaqdır. Şuşa şəhərinin adı ölkəmizin, dünyanın ən nüfuzlu, ən gözəl bir mədəniyyət mərkəzi kimi səslənəcəkdir. Burada xalqımızın mədəniyyəti ilə, dünya mədəniyyəti ilə bağlı beynəlxalq tədbirlər keçiriləcəkdir.

İşğaldan azad edilmiş torpaqlarda böyük bir məsafədə sərhədlərimizin qurulması ilə bağlı olduqca mühüm işlərə başlanmışdır. İmkanları genişlənən aqrar sektorumuz sürətlə inkişaf edəcəkdir. Prezidetin azad olunmuş torpaqlara səfər etməsi, orada əsgərlərimizlə səmimi söhbətləri, uçurulmuş məscidlərin xarabalıqlarında dünya xalqlarına, dünya müsəlmanlarına müraciət etməsi, tezliklə abadlıq işlərindən danışması əhali arasında olduqca böyük ruh yüksəkliyi yaradır. Onun Birinci vitse-prezident Mehriban Əliyeva ilə birlikdə Xudafərin körpüsünü məhəbbətlə ziyarət etməsi xalqımızın tarixinə, mədəniyyətinə, taleyinə qarşı necə həssas olduğunu bir daha nümayiş etdirdi.

Bütün məsələlərə dərindən nüfuz etməyi bacaran Prezidentimiz 2021-ci ili “Nizami ili” elan etmişdir. Bu, olduqca düşünülmüş bir addımdır. Bu bir tərəfdən Azərbaycanın hələ 9 əsrdən əvvəlki dövrünün intibahından, bu torpaqlarda kimlərin yaşamasından, necə dahi şəxsiyyətlər yetirməsindən xəbər verir, digər tərəfdən yer üzünün bütün bəlalardan xilas olmasının yalnız müdrikliklə mümkün olduğu fikrini elan edir. Eyni zamanda xalqımızı öz tarixi keçmişini, milli mədəniyyətini, fəlsəfəsini, ədəbiyyatını dərindən öyrənməyə səsləyir. Düşmənə öz yerini göstərir.

Prezident fevral ayının 2-də *“Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”in* təsdiq edilməsi haqqında sərəncam imzaladı. Müəyyən olunmuş bu prioritetlər növbəti on ildə ölkəmizdə tərəqqinin təmin olunmasında mühüm rol oynayacaqdır. Dövlətimizin qüdrətlənməsinə, xalqın rifahının yüksəlməsinə kömək edəcəkdir. Növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafını yüksək şəkildə təmin etmək üçün 5 əsas istiqamət Milli Prioritet olaraq müəyyənləşdirilmişdir: 1) dayanıqlı, artan rəqabətqabiliyyətli iqtisadiyyat; 2) dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət; 3) rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı; 4) işğaldan azad olmuş ərazilərə böyük qayıdış; 5) təmiz ətraf mühit və “yaşıl artım” ölkəsi olmaq.

Müasir dünyanın tələblərinə uyğun olan bu prioritetlərin yerinə yetirilməsi ölkəmizin sürətlə tərəqqi etməsində mühüm rol oynayacaqdır. Bu prioritetlərin həyata keçirilməsi üçün Prezident Nazirlər Kabinetinə həvalə etmişdir ki, 9 ay ərzində “2021-2025-ci illər üçün sosial-iqtisadi inkişaf strategiyaları” hazırlansın. Aparıcı beynəlxalq təşkilatlar və ixtisaslaşmış konsaltinq şirkətləri ilə səmərəli əməkdaşlıq edilsin və müvafiq dövlət orqanları (qurumlarının), elmi təşkilatlar, mütəxəssislər və vətəndaş cəmiyyəti institutları bu işə cəlb olunsunlar.

Göründüyü kimi, bu yolda hər bir kəsin öhdəsinə müəyyən işlər düşür. Təbii ki, Azərbaycan alimlərinin, elmi təşkilatların, xüsusi ilə Azərbaycan Milli Elmlər Akademyasının qarşısında konkret vəzifələr dayanır. Bununla bağlı bütün institutlarımızda ciddi işlər gedir. 2021-ci ildə hər bir institutda elmi-tədqiqat mövzuları bu məqsədin reallaşmasına kömək edəcəkdir. Təbii ki, hər bir institutun qarşısında öz profilinə görə konkret vəzifələr vardır. Məsələn, tarix, arxeologiya istiqamətli tədqiqatlar erməni həyasızlığını, saxtakarlığını ifşa edən, həqiqəti ortaya qoyan araşdırmalara, iqtisadi yönümlü araşdırmalar iqtisadiyyatımızın möhkəmlənməsinə, riyazi yönümlü araşdırmalar inkişafımızın səmərəli yollarını müəyyənləşdirməyə imkan verən riyazi modellərin qurulmasına, hüquq, fəlsəfə yönlü tədqiqatlarımız hüquqi, fəlsəfi, sosioloji bazamızın möhkəmlənməsinə xidmət edən tədqiqatlara - bir sözlə, hər bir institut özünün kömək edə biləcəyi sahələr üzrə araşdırma aparmağa başlamışdır.

AMEA-nın Azad Həmkarlar İttifaqı da öz öhdəsinə düşən işləri yüksək səviyyədə, ölkə Prezidentinin çağırışlarına uyğun olaraq həyata keçirməyə çalışır. Ötən ilin əvvəlindən koronavirusla bağlı baş verənlər Həmkarlar İttifaqının diqqət mərkəzində olmuşdur. Bu xəstəlik hələ ölkəmizdə yayılmağa başlamazdan əvvəl xeyli proflaktik tədbirlər görülmüşdür.

*Pandemiya dövründə aztəminatlı akademiya əməkdaşlarına ərzaq yardımları edilmişdir. Müharibədə iştirak edən əməkdaşların ailələri ilə əlaqə saxlanmış, onların bir sıra problemlərinin həll olunmasına yardım edilmişdir. Müharibədən qayıdan bir neçə əməkdaşımız ödənişsiz olaraq sanatoriyalara göndərilmişdir.*

***Habil QURBANOV,***
***AMEA-nın Azad Həmkarlar İttifaqının sədri,***
***hüquq üzrə elmlər doktoru, professor***

# Zəfər savaşının tarixçi döyüşçüsü

## Baş leytenant Ramin Babayevin Laçından başlanan qələbə yolu, Qubadlıdakı cəbhə xatirələri, azadlığa qovuşan dövlət sərhədində xidmət hekayəsi...

*Əvvəli 1-ci səh.*

*Laçın meşələrində düşmənə qarşı savaşan əsgərlərimizi bir dəqiqə belə dayanmadan mərmi atəşinə tutaraq qəhrəman oğullarımızın gözünü qorxudacaqlarını zənn edirdilər. Daha nəzərə almırdılar ki, gözlərini qan bürümüş cəsur igidlərimiz ölsələr də, amallarından dönən deyildilər.*

*“İrəli!”, hayqıraraq qorxmadan döyüşə atılır, düşmənə aman vermirdilər. Çünki qarşıda hələ azadlığına qovuşacaq, üçrəngli, ay-ulduzlu şanlı bayrağımızı qoynunda dalğalandıracaq torpaqlarımız vardı... İllərdir gözlədiyimiz bu müqəddəs amal uğrunda isə ölməyə də dəyərdi...*

*Amma savaşın bu qızğın günlərində təsəvvürlərinə də gətirə bilməzdilər ki, təxminən iki sutka sonra nəinki arxa cəbhədə, elə ön cəbhədə də hər kəs Azərbaycanın Qarabağ uğrunda gedən Vətən müharibəsində tam qələbə çalmasını bayram edəcək...*

44 günlük Vətən müharibəsinin iştirakçısı, Prezident İlham Əliyevin sərəncamı ilə “Laçının azad olunmasına görə” medalı ilə təltif olunan baş leytenant Ramin Babayevin döyüş yoluna nəzər salırıq...

Həyatının 2 aylıq müharibə kəsimini xatırladıqca şahidi olduğu səhnələri, ölümləri, ağrı-acıları yenidən yaşayır sanki... Amma keçdiyi şərəfli döyüş yoluna baxıb qürur duyur həm də... Və o fəxarət dolu tarixin üzərindən illər keçsə də, yaşadıqlarını ömrünün heç bir çağında unutmayacağını deyir.

### Ya əsir düşəcəkdik, ya da bizi güllələyəcəkdilər...

Babayev Ramin Kənan oğlu 1978-ci il sentyabrın 3-də Bakıda dünyaya gəlib. 1995-ci ildə 176 saylı orta məktəbi bitirib. Elə həmin il Bakı Dövlət Universitetinin Tarix fakültəsinə daxil olub. 1998-ci ildə leytenant rütbəsi alıb. 2001-ci ildə Naxçıvan Muxtar Respublikasında taqım komandiri olaraq həqiqi hərbi xidmət keçib. 2002-ci ildə baş leytenant rütbəsinə yüksəlib. 2003-cü ildə hərbi xidmətdən tərxis olunub.

“Ultra” texnologiya şirkətində çalışan Ramin Babayev Azərbaycanın Qarabağ uğrunda haqq savaşı başlayanda döyüşdə iştirak etmək üçün könüllü olaraq Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciət edib. Nəhayət, oktyabrın 24-də cəbhəyə yola düşüb. 2 gün sonra taqım komandiri olaraq Laçının Səfiyan kəndinə gəlib. Tabeliyindəki 16 əsgərlə 7 gün meşənin içində postumuzun müdafiəsini həyata keçirib. Deyir ki, o bir həftə ərzində postdan-posta atışma olsa da, irəli getmək əmri verilmədiyindən, sadəcə, olduqları mövqeyi qoruyurdular.

Noyabrın 1-də həmin postu başqa hərbi hissəyə təhvil verərək kəndin aşağı hissəsində iki dağın arasında düzənlikdə yerləşirlər. Noyabrın 3-də xəbər gəlir ki, hazırlaşın, sabah döyüşə girirsiniz. Beləliklə, noyabrın 4-də Laçın uğrunda ağır döyüşlər başlayır.

- Həmin gün Laçın istiqamətində hücuma keçdik. Düşmən bütün qüvvəsini bizim gəldiyimiz istiqamətə toplamışdı. Beləliklə, ağır döyüş başladı. Həmin gün şəxsi heyətlə 200 metr irəli getmişdik ki, bizi minaatanlardan atəşə tutdular. Qarşıda 11 əsgər gedirdi. Onlar təpəni burulan kimi qabaqlarına iki mərmi düşdü. Bir neçə şəhid verdik. Döyüş zamanı mühasirəyə düşdük. İgid oğlanlarımız sayəsində 2 saat döyüşdən sonra mühasirədən çıxdıq. Düşmən xeyli canlı itki verdi.

Bölük komandiri əvəzi, leytenant Anar Əliyev dedi ki, leytenant Ramaldanovun erməni postunu götürməsinə 200 metr qalıb, ona kömək lazımdı. 6 əsgəri götürüb Ramaldanova köməyə getdik. Çayın içinə düşüb irəliləməyə başladıq. Çayın daşları elə bil ülgüc idi. Ayağını hara qoyurdun, sürüşüb yıxılırdın. Dərə də çox soyuq idi. O qədər nəmişlik idi ki... Gün işığı düşmürdü deyə ağacların yarpaqları quruyub yerə tökülmüşdü, torpaq görünmürdü. Ayağını hara basırdın 20-30 santimetr dərinlikdə palçığa girirdin. Buna baxmayaraq, 300-400 metr irəlilədik. Qarşımıza iki yaralı əsgər çıxdı. Soruşdular ki, komandir, hara gedirsiz? Dedim, Ramaldanova köməyə. Dedilər, nə danışırsız, siz həmin ərazini xeyli arxada qoymusuz, qarşıda erməni postu var, səhv istiqamətdə gedirsiz. Bəlkə də onlar sizi görüb, bilərəkdən yaxına buraxırlar... Çay axan dərə çox dərin olduğu üçün yuxarını görmürdük. Nə qədər getdiyimizin fərqində olmamışıq. Həmin yaralılar da atışma zamanı düşüblər çayın içinə. Yolu tanımadıqları üçün də azıblar. Onlar qarşımıza çıxmasaydı, ya əsir düşəcəkdik, ya da bizi elə meşənin içində güllələyəcəkdilər. Vəziyyəti biləndən sonra yaralı əsgərləri götürüb çayın içiylə geridə yerləşən məntəqəyə qayıtdıq.

### Ermənilər meyitlərimizin də altına mina düzürdülər

- Noyabrın 4-dən 10-a qədər Laçında çox ağır döyüşlər getdi. Bir dəfə ermənilər bir posta hücum etdilər. Həmin postu dörd əsgər və bölük komandiri Sənan Əsədov müdafiə edirdilər. Düşmən itki verərək geri çəkildi. Biz 6 gün orda qaldıq, həmin postları müdafiə etdik.

Təəssüf ki, yaralılarımızla bərabər şəhidlərimiz də oldu...

Rabitəçi Hacıyev Elmaz ağacın dibində oturmuşdu. Güllə əvvəl ayağından dəydi. Kapitan Rüstəm Babayev qışqırdı ki, Elmaz, qalxma, gəlib götürəcəyik səni. Aramızda 4 metr məsafə vardı ki, özümüzə tərəf çəkək. Qəfil hərəkət etmək olmurdu, çünki üstündə 40 kiloya qədər yük vardı. Elmaz dikəldi, çəkmənin ipini açıb ayağına bağlayanda yenə atəş açdılar, namərd düşmənin gülləsinə tuş gəldi. Onun və Araz Cəfərovun nəşini 28 gün sonra çıxara bildik. Biz həmin yerdə döyüşdük, amma ərazini götürə bilmədik deyə dayaq məntəqəsini orada qurduq. Ermənilər də aşağı düşmədi. Ona görə meyitlər qaldılar neytral ərazidə. Dekabrın 2-də həmin əraziyə qayıdıb gördük ki, meyitlər elə ordadı. Üstlərinə qar yağmışdı, heç çürüməmişdilər...

R.Babayev deyir ki, gərək düşmənin də az-çox vicdanı olsun. Lakin ermənilər o qədər şərəfsiz, alçaq düşməndi ki, hətta neytral ərazidə qalan meyitlərimizin də altına mina düzürdülər. Nəinki insanlara, təbiətə qarşı da qəddarlıq edirdilər. Topxana meşəsini amansızlıqla yandırırdılar.

- Alışqanlı mərmi atırdılar meşəyə. Ağaclar yanmağa başlayırdı. Hər yeri tüstü bürüyürdü. Məcburən ya söndürməliydin, ya da oranı tərk etməliydin. Müşahidə məntəqəmiz o meşənin içindəydi. Bir dəfə yaxınlığımıza mərmi atdılar. 11 nəfər idik. Kitellə, buşlatla - bir sözlə, əlimizə nə keçdi yanğını söndürməyə başladıq. Söndürəndə də bildilər ki, meşədə adam var. Başladılar bizi vurmağa. O qədər güclü atışma idi ki, koordinat götürə bilmirdik. Bizim artilleriya qüvvəsi hesabına düşməni susdura bildik.

### Demişdim, şəhid olsam, meyitimi o tərəfdə qoymayın...

Baş leytenant xatırlayır ki, bir neçə dəfə ölümlə üz-üzə gəldiyi məqamlar olub. Amma sanki gözəgörünməz bir əl daim onu qoruyub. Görünür, şəhidlik də İlahinin bir yazısıdır və hər kəsə qismət olmur. Elə onun da taleyinə bu müqəddəs zirvəyə ucalmaq yazılmayıbmış...

- Noyabrın 6-da döyüş ərazisindən şəhid çıxarırdıq. Tankın yanına çatanda erməni snayperi məni vurdu. Hiss etdim ki, qəfildən sinəmə bərk nəsə dəydi. Əlimi sinəmə salıb gördüm qan gəlmir. Bildim ki, güllə dəyib, xoşbəxtlikdən, bronjiletimə girib. Sadəcə məsafə uzaq olduğu üçün öldürücü gücü olmayıb. Amma 1 həftə güllə dəyən yer - qabırğamın üstü ağrıdı. O gülləni ömürboyu yadigar saxlayacam...

Bir dəfə də Anar ayağından yaralanmışdı. Ömərlə birlikdə onu təpənin dibindən sürüyüb ağacların dibinə gətirdik. Bizdən təxminən 60 metr aralıya minaatan mərmisi düşdü. Dalğası bizi dərədən çaya atdı. Üzüüstə yıxıldım. Dizlərim möhkəm əzildi. Elə güclü sümük ağrısı oldu ki, elə bildim qəlpə dəyib. Amma dillənmədim ki, birdən məni hospitala apararlar. Ömərlə birlikdə Anarı dartıb çəkdik aşağı. 50 metr irəli aparıb ağaca söykədik ki, otur burda, gəlib aparacağıq səni...

Döyüşlərin birində də qəlpə gicgahıma dəyib sıyırdı. Eləcə bir qədər qan axıb dayandı. İzi hələ də qalır. Minaatanın xırda qəlpəsi əlimin üstünə girmişdi, onu dırnağımla çəkib çıxardım. Bir qəlpə də yerdə çantamın içindəki üzqırxana dəyib deşmişdi. O üzqırxanı da evdə yadigar saxlayıram...

İsti-isti adam ağrını elə də hiss eləmir. Çünki o hayda olmursan. Bircə onu arzulayırdım ki, ay Allah, məni öldürürsənsə, qəfil öldür, şikəst qalmayım. Hüseynə demişdim, şəhid olsam, meyitimi o tərəfdə qoymayın, birtəhər sürüyüb gətirin.

Dedi, komandir biz ölmüşük ki, səni öldürələr. Birinci elə həmin əsgərim şəhid oldu...

Onun ölümü mənə çox pis təsir etdi... Turalın da ölümü məni yandırdı. Mingəçevirdən idi, nişanlıydı. Deyirdi komandir, sağ-salamat evə qayıdaq, toyuma dəvət edəcəm, gəlib iştirak edərsən. Heyif ki, toy deyil, yas qisməti oldu...

### O gün hamının gözündən yaş tökülürdü...

- Bir hadisə isə ölümün həqiqətən də insanın alnına öncədən yazıldığına məni əmin etdi. Əgər sənin qismətində bu yaşda həyatdan köçmək yoxdursa, nə olursa-olsun ölüm səndən uzaq düşəcək. Leytenant Mehdi Əhmədov dedi ki, zirehli maşına min, irəli get. Oturdum maşının qabaq oturacağında. Birdən Mehdi qaça-qaça gəldi ki, mən ora çıxa bilməyəcəm. Qoy mən maşınla gedim, sən piyada qalx. Ürəyimdə narazı olsam da, düşdüm aşağı. Bizdən 70 metr aralanandan sonra maşını ermənilər tank əleyhinə idarə olunan raketlə vurdular. Mehdi və sürücü 3-cü dərəcəli yanıq xəsarətləri aldılar. Arxada oturan əsgərlərin bəzisi qəlpə yarası aldı, bəzisi isə tüstüdən zəhərləndi. Halbuki o maşının içində mən olacaqdım... Şükürlər olsun ki, ölüm-itim olmadı.

Taqım komandiri danışır ki, noyabrın 8-də Bakıda Şuşanın işğaldan azad olunmasının bayram kimi qeyd edilməsi erməniləri çox hiddətləndirdi. Hətta Şuşanın qisasını almağa çalışdılar. Həmin gün axşam dayanmadan bizim mövqeyə atəş açdılar. 40 dəqiqəyə yaxın bəlkə 300 mərmi atdılar. Tərəflər arasında güclü atışma getdi. Xoşbəxtlikdən biz tərəfdən şəhid olmadı, amma 7-8 əsgər yaralandı.

Baş leytenant gecə 11-in yarısına qədər hər posta snayper yerləşdirdi. Ağdamlı əsgər Rəşad noyabrın 9-u səhər saat 10-dan axşam 5-ə kimi 18 ermənini güllə ilə vurdu. Onlardan 15-i öldü, 3-ü yaralandı.

Noyabrın 10-da səhər Laçın dəhlizinə çatmağa az qalmış qələbə xəbəri gəldi.

- Döyüş müddətində çox ağır hadisələrin şahidi olduq. Bir neçə əsgər yoldaşımız gözümüzün önündə şəhid oldu. Özümüz dəfələrlə ölümlə üz-üzə qaldıq, bir dəfə də ağlamadıq... Amma noyabrın 10-u qələbəmizi qeyd edəndə hamının gözündən yaş tökülürdü. Hər kəs şəhidlərə görə ağlayırdı, ölən cəsur oğlanlarımız üçün göz yaşı axıdırdı. Elə əsgərimiz vardı noyabrın 9-da şəhid olmuşdu. Bir neçə saat da sağ qalsaydı, heç nə olmayacaqdı... Ömür vəfa etmədi ki, bu sevinci onlar da bizimlə birgə yaşasınlar...

Noyabrın 10-da ilk dəfə ocaq qaladıq. 5 gün idi çəkmələrimizin içi su, ayaqlarımız, corablarımız yaş idi. Qurulandıq. Nəhayət xörək hazırladıq, duzsuz bişirdik. Günlərdir isti xörək yemirdik. Yemək bizə gəlib çatana qədər donurdu, çörək bərkiyirdi. Bir sutka dayanmadan çay içdik. 17 gün idi ki, çay içmirdik.

Yağışda, qarda, yaş, palçıqlı torpağın üstündə yatırdıq, oradan da durub irəliləyirdik. Meşədə çaqqal necə ulayırdısa, gözümüzə yuxu getmirdi...

### Anamla atam harda döyüşdüyümü bilmirdilər

Atəşkəs elan olunandan 5 gün sonra Ramin Babayev Qubadlının Xanlıq kəndinə gəlir. 17 gün orada hərbi xidmət keçir. Dekabrın 2-dən isə Müdafiə Nazirliyinin əmri ilə Gorus-Qafan istiqamətində müdafiə və mühafizədə iştirak edir.

- Erməni tərəfinə bizim sərhədləri tərk etmək üçün dekabrın 20-nə qədər vaxt vermişdilər. Amma 18-ində çıxdılar. 2 gün PUA-ların müşayiətilə həmin ərazilər minalardan təmizləndi. Hardasa 400-ə qədər mina tapıldı. Hətta bir neçə gün öncə orda iki erməni öz basdırdıqları minaya düşmüşdü. Dekabrın 21-də Qafana getdik. Dağlıq, qayalıq ərazi idi. Bir çay axırdı. Yer doluydu canavar ləpirləriylə. Qayaların başında qartallar uçurdu. Ucqar bir yer idi. Şəbəkə tutmurdu. Postumuzu qurduq,



3 gün orda qaldım. Dekabrın 25-də isə tərxis olundum.

Evə geyindiyi hərbi forma ilə gəlir. Üzərində müharibənin izləri olan şəhid qanı, palçıq, tər, çirk ilə “bəzənmiş” forma... Ürəyində qarışıq duyğular, beynində isə ömürboyu yaddaşından silinməyəcək müharibə səhnələri və döyüş xatirələri...

- Bu vaxta qədər döyüş filmlərinə sadəcə film kimi baxardıq. Amma bilmirəm, bundan sonra o filmlərə, ümumiyyətlə, baxa biləcəm, ya yox. Çünki Hollivud kinolarında gördüyümüz dəhşətli müharibə səhnələrini biz eynilə yaşadıq. Məsələn, 3 nəfər vuruşursuz, snayper yanındakı əsgəri vurur, sən sağ qalırsan. Halbuki səni də vura bilərdi... Qismət...

Mən müharibəyə könüllü müraciət edib getdim. Çantamı yığıb hazır qoymuşdum, hətta vəsiyyətimi də yazmışdım... Yoldaşıma da hər şeyi izah etmişdim, tapşırmışdım möhkəm olsun, başını dik tutsun... Yəni şəhid olmağa ürəkdən hazır idim. Bilirdim, müharibədən dönməmək də var. Amma... Mən şəhidlərimizin ruhu qarşısında baş əyirəm. Şəhidlik həqiqətən də çox uca, ali və müqəddəs məqamdı. Hamıya qismət olmur. Mənim də qismətimdə yoxmuş demək...

Qəribədir ki, müharibə insanı dəyişdirir. Sanki qəddarlaşırsan, ölüm gözündə adiləşir. Döyüş zamanı qorxu hiss etmirsən. Ölümün də gözünə dik baxırsan. İnsanın özündən asılı deyil bu. Döyüş günlərində heç kim yadıma düşmürdü. Ürəyimdə iki hiss vardı - ermənilərə bəslədiyim nifrət və Qarabağa qovuşmaq. Bu iki duyğu məni ayaqda bərk saxlayırdı.

Noyabrın 14-nə qədər anamla atam harda döyüşdüyümü bilmədilər heç. Ağcabədidə təlimdə olduğumu zənn edirdilər. Zəng vuranda sakit danışırdım. Minaatanın fitini eşidən kimi tez telefonu söndürürdüm, bilirdim ki, yaxınlara düşüb partlayacaq. Sonra bir də yığıb deyirdim, şəbəkə zəifdi, telefon yaxşı tutmur...

Doğma torpağını, vətənini qorumaq hər bir Azərbaycan vətəndaşının, hər bir oğulun şərəf borcudur. Mən də döyüşlərdə iştirak etdim və vətənə olan borcumu yerinə yetirdim. Müharibəyə fəxrlə getdim və qürurla geri döndüm. Xalqımızın tarixinin bu cür özəl dönəmində mənim də adımın olması, torpaqlarımızın azadlığı uğrunda döyüşlərdə iştirakım həyatımın şərəfli səhifələridi.

Ali Baş Komandan İlham Əliyevə minnətdarlığımı bildirirəm ki, döyüşlərdə iştirakımı yüksək qiymətləndirdi, məni “Laçının azad olunmasına görə” medalı ilə təltif etdi. Bu mənim üçün böyük fəxr, qürurdur. Çox şükür, Qarabağı erməni silahlı şərəfsizlərindən təmizləmək kimi xosbəxtlik mənə qismət oldu. 30 ildir həsrətlə gözlədiyimiz Qarabağımıza qovuşduq. Bu qələbədə bir damla belə payım oldusa, nə xoş mənə...

*Bəli, 44 günlük müqəddəs Vətən savaşında qəhrəman oğullarımız günlərlə soyuq səngərlərdə ölümlə burun-buruna dayanaraq, canlarıyla sipər oldular ana torpağa...*

*Qarabağda qanlarıyla yazdılar Azərbaycanın qürurverici zəfər tarixini...*

*Yazdılar ki, bu şərəf salnaməsi min illərin o üzündə belə qürurla, dəyanətlə vərəqlənsin...*

***Xəyalə MURADLI,***
***“Azərbaycan”***

# Əhalinin 93 faizi Paşinyanın istefasını tələb edir

*Əvvəli 1-ci səh.*

Görünən odur ki, ölkədə yaranan böhranlı vəziyyət insanları hakimiyyət barədə daha pessimist düşünməyə vadar edir. Qeyd olunur ki, çıxılmaz duruma düşməyin yaratdığı pis duyğular, Ermənistanın perspektivinə inanmamaq artıq dayanıqlı şəkil alır. Bu da insanların davranışına və əhvali-ruhiyyəsinə təsir edir.

Böhran Ermənistanda həyatın bütün sahələrini ağuşuna alıb. Yalnız iqtisadi sferada baş verənlər vəziyyətin nə qədər acınacaqlı olduğunu göstərir. Artıq iqtisadçılar dövlət borcunun həddən çox olması barədə həyəcan təbili çalırlar. Ermənistanın keçmiş sənaye və ticarət naziri Karen Çşmarityan “4rd.am” saytına verdiyi müsahibəsində bildirib ki, problem Ermənistanın ümumi iqtisadi siyasəti ilə bağlıdır. “Əgər mövcud iqtisadi geriləmə tempi daha 2 ay belə davam etsə, bundan sonra nə olacağını söyləmək çətindir. Bütün bunların necə bərpa ediləbiləcəyini düşünmək qəliz məsələ olacaq. Bu gün milli, dövlət maraqlarımız təhlükə altındadırsa, hansı milli iqtisadiyyatdan danışa bilərik”, - deyə o sual edib.

Qeyd edək ki, Ermənistanda gözlənilən defolt bu ölkənin xarici borc öhdəlikləri sahəsində ciddi çətinliklərin meydana çıxmasına rəvac verəcək. Çünki defolt o deməkdir ki, dövlət borc öhdəliklərini vaxtında yerinə yetirə bilmir. Ermənistan onsuz da borc öhdəliklərini çətinliklə yerinə yetirir. Əslində, borc öhdəlikləri başqa borclar hesabına yerinə yetirildiyindən ölkənin xaricdən olan iqtisadi asılılığı da sürətlə artır.

Ermənistan hakimiyyəti üçün daha bir problem ölkədən kapital axınının artması ilə bağlı yaranıb. “Joxovurd” qəzeti etibarlı mənbələrinin təqdim etdiyi statistikaya əsasən yazır ki, Nikol Paşinyan hakimiyyətə gəldikdən sonra Ermənistandan xaricə pul axını rekord həddə artıb. Qeyd olunur ki, hökumətdə təmsil olunan oliqarx siyasətçilər və biznesmenlər digərlərinin başına gələnlərdən dərs çıxararaq Paşinyanın toruna düşməmək üçün Ermənistanı tərk etmək qərarına gəliblər. 10 ay ərzində Ermənistan kimi kiçik və büdcə kəsiri ilə dövlət borcu getdikcə artan bir ölkədən 1 milyard ABŞ dollarına yaxın pulun xaricə çıxarılması yaxşı heç nə vəd etmir. “Çünki bu, həmin oliqarx siyasətçilərin Ermənistandakı bizneslərinin bağlanması və iqtisadiyyata yatırdıqları sərmayənin geri götürülməsi deməkdir ki, nəticədə müharibədə məğlub olan bir ölkədə işsizlik və yoxsulluğun səviyyəsi daha da artacaq. Belədə zərbə Paşinyana yox, erməni xalqına dəyəcək”, - deyə qəzet yazır.

Ağır sosial-iqtisadi vəziyyət fonunda Ermənistanda miqrasiya probleminin daha da dərinləşməsi müşahidə olunur. Hadisələrin real inkişaf axarı göstərir ki, bu gedişlə miqrasiya Ermənistanda əsl demoqrafik fəlakət yaradacaq. Hakimiyyətin bu məsələnin həlli istiqamətində atdığı addımlar isə faktiki olaraq iflasa uğrayıb. Məsələnin bu tərəfinə nəzər salan etnoqraflar bildirirlər ki, ölkə rəhbərliyi indiyədək miqrasiya prosesini dayandıra, qarşısını ala bilməyib.

“İravnuk” qəzeti isə sosioloqlara istinadən yazır ki, Ermənistan əhalisinin 45 faizi tam kasıblıq həddində yaşayır. Araşdırmalar nəticəsində həmin 45 faizin 13 faizinin dilənçi vəziyyətdə yaşadığı məlum olub. “Müəyyən etdik ki, ağır sosial vəziyyətlə əlaqədar uşaqlar məktəbə getmirlər. Ailələr buna səbəb olaraq həmin uşaqların ayaqqabı və isti geyimlərinin olmamasını göstərirlər”, - deyə qəzet yazır.

Beləliklə, mövcud vəziyyət qarşıdakı dövrün Ermənistanda siyasi və sosial-iqtisadi baxımdan ağır fəsadlarla zəngin olacağını göstərir. Ona görə ekspertlər ölkədəki böhranın daha da dərinləşəcəyini labüd hesab edirlər.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

# Azərbaycan qadınlarının ilk qurultayı

**1921-ci il fevralın 11-də Bakıda Azərbaycan qadınlarının I qurultayı başa çatıb. Qurultay coşqun, siyasi nümayişlə bitib. Qadınlar bayraq və transporantlarla dəniz sahilinə nümayişə çıxıblar. Azərbaycan qadınları ilk dəfə belə mütəşəkkil şəkildə toplanaraq öz birliklərini, mübarizliklərini göstəriblər.**

### Məşəqqətli illər...

Azərbaycan qadınları tarixboyu çox məşəqqətlər çəkiblər. Şəriət qaydaları bəhanəsi ilə hüquqları əllərindən alınıb. Çarizm dövründə də Azərbaycan qadınlarının həyatı ağır keçib. Çar Rusiyasının son dönəmlərində məmləkətimizdə mövcud olan 942 məktəbdə təhsil alan 62161 uşaqdan 22161 nəfəri azərbaycanlı idi. Onlardan isə 1862 nəfərini qızlar təşkil edirdi.

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti böyük amallarla quruldu. Cümhuriyyət hökuməti çox ağır şəraitdə Azərbaycan vətəndaşlarının tərəqqisi naminə misilsiz işlərə başladı. Qadınlara səsvermə hüququ verildi. Ancaq cümhuriyyət dönəmində müharibə və digər çətinliklər təhsil və ictimai həyatda görüləcək bir sıra işləri əngəllədi. Azərbaycan Xalq Cümhuriyyətinin süquta uğradılması nəticəsində isə həyata keçilməyə başlayan və nəzərdə tutulan işlər yarımçıq qaldı.

### Kommunizm quruculuğunda qadınlara bəslənən ümidlər...

Bolşeviklər qadın azadlığı mövzusunu partiya proqramının əsas müddəaları sırasına daxil etdilər. Çünki kommunizmin qurulması üçün qadın savadsızlığının ləğvini əsas faktor hesab edirdilər. Beləliklə, 1920-ci illərdə Azərbaycanda da yeni bir cəmiyyət qurmağın ən vacib vəzifəsi qadının azad edilməsi, onu iqtisadi, sosial və mədəni həyat arenasına çıxarmaq oldu. Əhalinin yarısını qadınlar təşkil edirdi. Onların yeni cəmiyyətin qurulmasında kişilərlə bərabər iştirakı zəruri idi. Qadın məsələsinin, qadın əməyinin, mədəni səviyyəsinin və təhsilinin hərtərəfli öyrənilməsinə dair planlar tərtib edilməyə başlanıldı.

Qadınların böyük əksəriyyəti hələ onlara verilən hüquqların mahiyyətini tam dərk etmək iqtidarında deyildi. Bir vacib və vəziyyəti mürəkkəbləşdirən, faciələrə yol açan səbəb isə Azərbaycanda qadın probleminin həllinə cəmiyyətin mane olması idi. Elə bu səbəbdən də fərmanların, qanunların və qaydaların qəbul olunması qadınların həqiqi bərabərliyinin həyata keçirilməsi demək deyildi. Odur ki, qanunverici aktları əhali arasında tanıtmaq üçün təşkilatlar yaratmaq, maarifləndirmə işləri aparmaq vacib idi. 1920-ci ilin noyabr ayından Azərbaycanın hər yerində qadın probleminin həllində müstəsna rol oynayan qadın şöbələri yaradılmağa başladı. Qadın şöbələri yeni bir həyatın qurulmasında yaxından iştirak etdi. Həmin şöbələrin fəaliyyəti nəticəsində qadınlar tədricən ictimai işlərə cəlb olundu.

Bakıda qadın şöbə müdirlərinin ilk iclası 1921-ci ilin yanvarında çağırıldı. Bu şöbələrin qadınlarla ünsiyyət formalarından biri kimi 1919-cu ildən 1933-cü ilədək mövcud olan nümayəndə heyətləri yaradıldı. Nümayəndələr işçi və kəndli qadınlar arasından bir il müddətinə seçilirdi. Həmin qadınlar sonradan Nümayəndə məclisləri adlanan qruplarla birləşdi.

Qadınların ictimai həyatda, cəmiyyətdə rolu getdikcə artmaqda idi. Artıq onların səsi müxtəlif peşələrdən gəlirdi. Qadınların müxtəlif sahələrdə fəallıqlarının yüksəldilməsi davam etdirilirdi.

1920-ci ilin iyununda qadın hərəkatının fəal iştirakçılarından olan Ceyran Bayramovanın mənzilində Azərbaycanda ilk qadın klubu təşkil edildi. Ceyran Bayramova, Nisə Qafarova, Zeynəb Rizvanova, Ayyıldız Qasımova və başqaları müsəlman qadınlarını klubun işinə cəlb etmək üçün təbliğat işlərinə başladılar.

1920-ci il 21 iyulda qadın bərabərliyi qanunlarının pozulmasına qarşı "Mülki nikah, uşaqlar haqqında və dövlət aktları kitablarının tətbiqi haqqında" fərman hazırlandı. Çoxarvadlılıq, müvəqqəti nikah (siğə), qızların evlənməyə məcbur edilməsi qadağan olundu.

### Qurultayda müzakirə edilən mühüm məsələlər

Azərbaycan qadınlarının I qurultayı zülm və köləlik daşını atmış savadsız, hələ azadlığın nə olduğunu dərk edə bilməyən qadınların maarifləndirilməsi, fəal həyata cəlb olunması uğrunda işlərin davam etdiyi bir vaxtda - 1921-ci ilin fevralında çağırıldı. Azərbaycanın hər tərəfindən gələn qadınlar Bakıda toplaşdılar. Dörd gün davam edən qurultay Azərbaycan qadınlarının oyanışında çox mühüm rol oynadı.

1921-ci il fevralın 8-dən 11-dək Bakıda keçirilən Azərbaycan qadınlarının qurultayında 1188 nümayəndə iştirak etdi. Onların 815-i Bakıdan, 369-u respublikanın 12 əyalətindən, 4-ü Dağıstandan gəlmişdi. Nümayəndələrin milli tərkibi belə idi: azərbaycanlılar - 41,8 faiz, ruslar - 36,7 faiz, ermənilər - 13,8 faiz, digər millətlərin nümayəndələri - 7,7 faiz.

Qurultayın çağırılmasında əsas məqsəd respublikada çalışan qadınların fəallığını yüksəltmək və mahallarda qadın şöbələrinin işini təşkil etmək idi. Qurultayda "Mövcud vəziyyət haqqında", "Maarifçilik haqqında", "Şərq qadınlarının konqresi haqqında" məsələlər müzakirəyə çıxarıldı.

Bu qurultaydan sonra Azərbaycan qadınlarının həyatında mühüm hadisələr baş verdi. 1920-ci ildən başlayan qadınla kişinin hüquqlarının bərabərləşdirilməsi siyasətinin həyata keçirilməsi asan olmadı. Xüsusilə çadranın atılmasından narazı qalan kişilər təhdidlər yağdırırdılar, hətta qətlə belə əl atırdılar. Ancaq görülən tədbirlər nəticəsində tədricən qadınla kişi arasında savadsızlıq fərqi aradan qaldırıldı. Azərbaycan qadınlarının bütün sənət sahələrində böyük istedada malik olduqlarını, ictimai həyatda fəallıqlarını göstərmələri üçün şərait yarandı.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

2021-ci il "Nizami Gəncəvi ili"dir

# Nizami Gəncəvi və Əlişir Nəvai: ənənə və novatorluq

**Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu və Özbəkistan Respublikasının Azərbaycandakı səfirliyi "Nizami Gəncəvi və Əlişir Nəvai: ənənə və novatorluq" onlayn beynəlxalq elmi konfrans keçirib.**



Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin anadan olmasının 880 illiyinə və dahi özbək şairi Əlişir Nəvainin anadan olmasının 580 illiyinə həsr olunmuş konfrans Əlişir Nəvainin və Nizami Gəncəvinin Bakıdakı heykəllərinin ziyarəti ilə başlayıb.

Onlayn konfransı giriş sözü ilə açan Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli Prezident İlham Əliyevin 5 yanvar 2021-ci il Sərəncamı ilə 2021-ci ilin Azərbaycan Respublikasında "Nizami Gəncəvi ili" elan edilməsini bildirib. Həmçinin 19 oktyabr 2020-ci ildə Özbəkistan Respublikası Prezidentinin Əlişir Nəvainin anadan olmasının 580 illiyinin keçirilməsinə aid sərəncam imzaladığını diqqətə çatdırıb.

Akademik hər iki şairin yaradıcılığı haqqında danışaraq bildirib ki, böyük Azərbaycan şairi Nizami Gəncəvi dünyada ilk "Xəmsə" yaratmış qüdrətli sənətkardır və "Xəmsə"nin Şərq dünyasında böyük təsiri olub. Nizami ortaq mədəniyyətimizin zirvələrində dayanır, onun ardıcıllarından biri də Əlişir Nəvaidir. "Xəmsə" yaradıcılığında hər iki birincilik Azərbaycan və Özbəkistana məxsusdur. Əlişir Nəvai "Xəmsə" yaratmaqla bütün türk dünyasına böyük xidmət göstərmiş, türk dilinin "Xəmsə" yaratmaq qüdrətinə malik olduğunu sübut etmişdir. Əlişir Nəvai dövlət xadimi olmuş, özbək türkcəsi haqqında elmi əsər yazmış, ədəbiyyat ensiklopediyası yaratmışdır.

Əlaqələrin müasir inkişaf yolundan danışan akademik əlavə edib ki, İnstitutun Azərbaycan-Türkmənistan-Özbəkistan ədəbi əlaqələri şöbəsinin müdiri Almaz Binnətovanın "Sənətkarın elmi pasportu" seriyasında "Əlişir Nəvainin əsri və nəsri" adlı kitabı çap olunub. 2020-ci ildə İnstitutun "Müqayisəli ədəbiyyatşünaslıq" Beynəlxalq elmi jurnalının Azərbaycan-özbək ədəbi əlaqələrinə həsr olunmuş 352 səhifədən ibarət xüsusi buraxılışı işıq üzü görüb. Ədəbiyyat İnstitutu ilə Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universiteti arasında imzalanmış müqaviləyə əsasən, Azərbaycan-Türkmənistan-Özbəkistan ədəbi əlaqələr şöbəsinin nəzdində Əlişir Nəvai adına Ədəbiyyatşünaslıq Mərkəzi yaradılıb. BDU-nun professoru, filologiya elmləri doktoru Ramiz Əskər "Xəmsə"ni bütövlükdə Azərbaycan dilinə çevirib. Bununla yanaşı, yubileylərlə bağlı ortaq tədbirlərin il ərzində davamlı olacağını qeyd edib.

Sonra Özbəkistan Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Bəhram Əşrəfxanov hər iki şairin türk dünyasında önəmli mövqe tutduğunu bildirib. 2008-ci ildə Bakıda Nəvainin heykəlinin açılışını, Daşkənddə isə Nizami Gəncəvinin heykəlinin ucaldılmasını birlik və qardaşlığa ərməğan adlandırıb.

Onlayn konfransda Əfqanıstan İslam Respublikasının Azərbaycandakı səfiri Amanulla Ceyhun və Özbəkistan Yazıçılar Birliyinin sədri Siraceddin Səyyid də nitq söyləyiblər. Konfransın davamında Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktoru, akademik Teymur Kərimli, filologiya elmləri doktoru, Müqumi adına Kokand Dövlət Pedaqoji Universitetinin fəxri professoru Almaz Ülvi, Özbəkistan Yazıçılar İttifaqının üzvü Mirzə Gəncəbəy, Özbəkistan Karakalpak Berdax adına Nukus Dövlət Universitetinin prorektoru, professor Olimjan Dusyenbayev, Özbəkistan Yazıçılar Birliyinin şöbə müdiri Ədhəmbəy Alimbəyov, Nizami Gəncəbi adına Ədəbiyyat İnstitutunun direktor müavini, dosent Aygün Bağırlı, Özbəkistan Respublikası Dil, Ədəbiyyat və Folklor İnstitutunun əməkdaşı, nəvaişünas Erqaş Oçilov Nizami və Nəvai yaradıcılığına aid məruzələrlə çıxış ediblər. Bunlardan əlavə, Əlişir Nəvai adına Daşkənd Dövlət Özbək dili və ədəbiyyatı Universitetinin şöbə müdiri, professor Nurbay Cabbarov, Özbəkistan Yazıçılar Birliyinin üzvü, filologiya elmləri doktoru Nüsrətulla Cumayeva, Nizamişünaslıq şöbəsinin aparıcı elmi işçisi Təhminə Bədəlova, Əlyazmalar İnstitutunun elmi katibi Əzizağa Nəcəfov, Karakalpak Berdax adına Nukus Dövlət Universitetinin Filologiya kafedrasının müdiri İlhambəy Qurbanbayev, Daşkənd Dövlət Şərqşünaslıq İnstitutunun kiçik elmi işçisi Aysara Məmmədəliyeva, özbək ziyalı Şaira Daniyarova konfransın mövzusuna uyğun məruzələrlə çıxış ediblər.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri davam etdirilir





Dövlət Sərhəd Xidməti (DSX) dövlət sərhədinin etibarlı mühafizəsinin təmin olunması və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirlərini davam etdirir.

DSX-nin Mətbuat mərkəzindən bildirilib ki, fevralın 8-də həyata keçirilmiş sərhəd mühafizə və əməliyyat-axtarış tədbirləri nəticəsində 11 kiloqram 710 qram narkotik vasitə və psixotrop maddəyə oxşar maddələrin qanunsuz dövriyyədən çıxarılması təmin edilib.

Belə ki, həmin gün DSX-nin Sərhəd Qoşunlarının "Horadiz" sərhəd dəstəsinin xidməti ərazisində Füzuli rayonunun Arayatlı kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti sahəsində dövlət sərhədinin gücləndirilmiş mühafizəsinin təmin edilməsi məqsədilə Füzuli Rayon Polis Şöbəsinin əməkdaşları ilə birgə keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində sərhədboyu ərazidə hərəkət edən "VAZ-2107" markalı 15-BJ-205 dövlət nömrə nişanlı avtomobilin sürücüsünün özünü şübhəli aparması diqqəti cəlb edib. Şübhəli şəxs yolun kənarında gizlin yerdən bağlama götürərək hadisə yerindən uzaqlaşmağa cəhd edib və sərhəd naryadının "Dayan!" əmrinə tabe olmayaraq ərazidən qaçmağa çalışarkən saxlanılıb. Saxlanılan şəxsin öz hərəkətlərini maskalamaq məqsədilə hadisə yerinə içərisində ailə üzvləri olan avtomobildə gəlməsi də aşkarlanıb.

Onun Qazax rayon sakini 1982-ci il təvəllüdlü Məmmədov Xəyyam Camal oğlu olması müəyyənləşdirilib. Həmin şəxsin əlindəki bağlamaya baxış zamanı içərisində ümumi çəkisi 9 kiloqram 160 qram narkotik vasitə və psixotrop maddəyə oxşar maddələr aşkarlanaraq götürülüb.

Eyni tarixdə Xəzər dənizinin cənub istiqamətində dövlət sərhədinin mühafizəsində olan sərhəd-gözətçi gəmisi tərəfindən dəniz istiqamətləndirici nişanına bağlanılmış iki torbanın içərisində təxmini çəkisi 2 kiloqram 550 qram narkotik vasitəyə oxşar maddələr aşkarlanaraq götürülüb.

Hər iki fakt üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.

***"Azərbaycan"***


## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu PHŞ Kartriclərin satın alınması ilə əlaqədar *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/ -** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqavileni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar.Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

Tender 1 LOT üzrə keçirilir.
İştirak haqqı: 100 (bir yüz) manat
**VÖEN: 1300050781**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**H/h: AZ46CTRE00000000000007018504**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**S.W.I.F.T: CTREAZ22**
**Büdcə gəlirlərinin təsnifat kodu: 142330**
**Büdcə səviyyəsinin kodu : 4**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri (Sənədin orijinalı skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (sənədin orijinalı skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2019 və 2020-ci illər üzrə);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (sənədin orijinalı skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir-11.02.2021-ci il tarixdən sonrakı tarixdə alınmış bank arayışı qəbul ediləcəkdir;*
- *satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması;*
- *satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması;*
- *mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması barədə məlumat (Statistika Komitəsindən alınmalıdır. Sənədin orijinalı skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;*
- *müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **05.03.2021-ci il saat 14:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **16.03.2021-ci il saat 14:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **17.03.2021-ci il saat 14:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

***QEYD:*** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***


# Beynəlxalq aləm

## ABŞ Myanmada hərbi çevrilişi pislədi




ABŞ Myanmada Silahlı Qüvvələrin hərəkətlərini pisləmiş və ordunu hakimiyyətdən əl çəkməyə çağırmışdır. Bu barədə "Röyter" Agentliyi xəbər verir.

Dövlət Departamentinin rəsmi nümayəndəsi Ned Prays bildirmişdir ki, Myanma ordusu demokratik yolla seçilmiş hökuməti bərpa etməli, məhbusları sərbəst buraxmalı, telekommunikasiya məhdudiyyətlərini aradan qaldırmalı və zorakılıqdan çəkinməlidir. O, əlavə etmişdir ki, əks təqdirdə ölkənin silahlı qüvvələrinin hərəkətləri ciddi nəticələrə gətirib çıxara bilər.

Xatırladaq ki, fevralın 1-də Myanma hərbçiləri Prezident Vin Myini və ölkənin faktiki lideri, dövlət müşaviri Aun San Su Çjini həbs etmiş, ölkədə bir il müddətinə fövqəladə vəziyyət elan etmiş, demokratik parlamentin sessiyasını ləğv etmişlər. Hazırda ölkədə hakimiyyət silahlı qüvvələrin komandanına məxsusdur. Bütün televiziya kanalları bağlanmış, "Facebook" sosial şəbəkəsinə çıxış dayandırılmışdır. Dövlət çevrilişindən sonra ölkə sakinləri hərbi xuntaya etiraz əlaməti olaraq küçələrə çıxmışdılar. Hərbçilər etiraz aksiyalarını dağıtmaq üçün döyüş patronlarından, rezin güllələrdən və təzyiqli sudan istifadə etmişlər.

## Koronavirusun yeni ştamlarının coğrafiyası genişlənir



Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) Böyük Britaniyada aşkarlanmış koronavirus ştammının (VOC-202012/01) keçən həftə daha altı ölkədə qeydə alındığını və yoluxma hallarının ümumi sayının 86-ya çatdığını bildirmişdir. TASS Agentliyi xəbər verir ki, əvvəlcə Cənubi Afrikada (501Y.V2), sonra isə Braziliya və Yaponiyada (S.1) aşkar edilmiş ştamların yayılması coğrafiyası da genişlənmişdir.

İndiyədək koronavirusun Cənubi Afrika variantı 47 ölkədə təsdiqlənmiş, P.1 ştammı isə artıq 15ölkədə qeydə alınmışdır.

ÜST-ün məlumatına görə, koronavirusun VOC-202012/01 variantı Britaniyada keçən ilin sentyabrında ortaya çıxmışdır. Cənubi Afrikada 501Y.V2 ştammı avqustun əvvəllərindən, Braziliya və Yaponiyada isə P.1 ştammı dekabr ayından bəri mövcuddur.

## Türkiyə İraqda yeni antiterror əməliyyatı başlatdı



Türkiyə Ordusu İraqın şimalında PKK terrorçu təşkilatının silahlılarına qarşı yeni əməliyyata başlamışdır. Bu barədə Türkiyə Milli Müdafiə Nazirliyi məlumat vermişdir.

Nazirliyin məlumatına görə, Türkiyə Silahlı Qüvvələrinin keçirdiyi ardıcıl uğurlu əməliyyatlar nəticəsində Şimali İraqda səngərlənmiş terrorçular ciddi təlefat verirlər. Eyni zamanda terrorçular Türkiyəyə ziyan vurmaq məqsədilə İraqın bir sıra bölgələrində fəaliyyətlərini davam etdirirlər.

Məlumatda deyilir ki, Türkiyə beynəlxalq səviyyədə tanınan özünümüdafiə hüququna əsaslanaraq, İraqın müvafiq bölgəsində əməliyyata başlamışdır. Əməliyyat ölkənin sərhədlərində terror təhlükəsini aradan qaldırmaq məqsədi daşıyır.

## Paraqvayda hərbi təyyarə qəzaya uğradı, 7 nəfər həlak oldu



Paraqvayda hərbi hava qüvvələrinə məxsus təyyarə qəzaya uğramışdır. Bu barədə "ABC" portalı xəbər verir.

Hadisədə 7 nəfər həlak olmuş, bir nəfər ağır yaralanmışdır.

Hazırda qəzanın səbəbləri məlum deyil. Uçuş şərtlərinin normal olduğu, heyətin problemlər barədə dispetçerlərə məlumat vermədiyi bildirilir. Təyyarə yerüstü xidmətlərilə son əlaqədən bir dəqiqə sonra qəzaya uğramışdır.

Yeganə sağ qalan şəxs heyət kapitanının icazəsi ilə təyyarəyə minmiş 19 yaşlı oğlandır. O, xəstəxanaya çatdırılmışdır.

## Nigeriyanın şimalında silahlı hücumda 23 nəfər öldürüldü



Nigeriyanın şimalında silahlı hücumlar nəticəsində 23 nəfər həlak olmuşdur. Yaralananlar da var. Bu barədə Kaduna əyalətinin daxili təhlükəsizlik və daxili işlər komissarı Samuel Aruvan məlumat vermişdir.

Aruvanın dediyinə görə, naməlum qruplar Birnin Qvari, Qiva, Çikun, İqabi və Kauru rayonlarında silahlı hücum təşkil etmişlər. Kaduna əyalətinə polis və ordu bölmələri göndərilmişdir.

Son illər Nigeriyada silahlı hücumlar artmışdır. Bədxahlar əsasən motosikletdən istifadə edirlər. Ona görə də bir sıra əyalətlərdə motosikletdən istifadə qadağan olunmuşdur.


## BİLDİRİŞ

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti Mil Qarabağ və Aşağı Şirvan Kollektorlarının İstismarı İdarəsi tərəfindən Yevlax rayonu ərazisində podrat üsulu ilə aparılacaq torpaq işlərinin satın alınması ilə əlaqədar 09 fevral 2021-ci il tarixdə elan olunmuş açıq tenderdə texniki səhvlər olduğu üçün açıq tender ləğv edilmişdir.

***Tender komissiyası***

## "Azərişıq" ASC Şamaxı rayonu, Çuxuryurd kəndi ərazisində yerləşən mövcud 35/0,4 kV-luq yarımstansiyanın əvəzinə tikilən 35/10 kV-luq yeni yarımstansiyada avadanlıqların quraşdırılması işlərinin satın alınması məqsədilə

### *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

**LOT-1. Şamaxı rayonu, Çuxuryurd kəndi ərazisində yerləşən mövcud 35/0,4 kV-luq yarımstansiyanın əvəzinə tikilən 35/10 kV-luq yeni yarımstansiyada avadanlıqların quraşdırılması işlərinin satın alınması**

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

Əlaqələndirici şəxs: Namiq Heybətov
Əlaqə telefonu (şəhər): (012) 440 39 93 (daxili: 92-19)
Elektron poçt: namiq.heybetov@azerishiq.az
İştirak haqqı: 900 (doqquz yüz) manat
Rekvizitlər:
**"Azərişıq" ASC**
**Hesab: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**VÖEN: 9900003611**
**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**
**Kod: 200189**
**SWIFT Code: AIIBAZ2X**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderdə iştirak etmək üçün iddiaçılar Portal vasitəsilə aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *malgöndərənin VÖEN-i, bank rekvizitləri, ünvanı, dövlət reyestrindən çıxarış; (təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən azı 30 (otuz) bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış (təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (əsli) (təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (arayış Dövlət Statistika Komitəsi tərəfindən alınmalıdır) (təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *iddiaçının son 1 (bir) illik və ya fəaliyyətə başladığı dövrdən iş təcrübəsi, yerinə yetirdiyi cari işlər və müqavilələr barədə məlumatlar (arayış formasında imzalanıb möhürlənərək skan formasında PDF formatında təqdim olunmalıdır);*
- *iddiaçının maddi-texniki bazası (sifarişi yerinə yetirməsi imkanı) haqqında məlumat (arayış formasında imzalanıb möhürlənərək skan formasında PDF formatında təqdim olunmalıdır);*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *iddiaçının yüklülük haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş arayış;*
- *lisenziya və icazələr.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **02.03.2021-ci il saat 16:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **12.03.2021-ci il saat 16:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **15.03.2021-ci il saat 16:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

***QEYD:*** *Hüquqi və digər sənədlərin yalnız əsli, əsli olmadığı halda surəti notarial qaydada təsdiq olunmalıdır (xarici iddiaçılar hüquqi sənədləri apostille etdirərək). Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## "Azərişıq"ASC Bakı şəhəri, Binəqədi rayonu, 110/35/6 kV-luq "Binəqədi" yarımstansiyasından qidalanan 35 və 6 kV-luq hava xətlərinin bir hissəsinin kabel xətləri ilə əvəz olunması işlərinin satın alınması məqsədilə

### *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

**LOT-1. Bakı şəhəri, Binəqədi rayonu, 110/35/6 kV-luq "Binəqədi" yarımstansiyasından qidalanan 35 və 6 kV-luq hava xətlərinin bir hissəsinin kabel xətləri ilə əvəz olunması işlərinin satın alınması**

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

Əlaqələndirici şəxs: Namiq Heybətov
Əlaqə telefonu (şəhər): (012) 440 39 93 (daxili: 92-19)
Elektron poçt: namiq.heybetov@azerishiq.az
İştirak haqqı: 850 (səkkiz yüz əlli) manat
Rekvizitlər:
**"Azərişıq" ASC**
**Hesab: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**VÖEN: 9900003611**
**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**
**Kod: 200189**
**SWIFT Code: AIIBAZ2X**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderdə iştirak etmək üçün iddiaçılar Portal vasitəsilə aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *malgöndərənin VÖEN-i, bank rekvizitləri, ünvanı, dövlət reyestrindən çıxarış; (təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən azı 30 (otuz) bank günü çox olmalıdır);*
